Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Böyük xeyriyyəçi, öz dövrünün maarifçisi
# Hacı Zeynalabdin Tağıyev

Böyük xeyriyyəçi, öz dövrünün maarifçisi – Hacı Zeynalabdin Tağıyevin anadan olmasının 200 illik yubileyi münasibətilə şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı - 2022**

**Tərtibçi:** **Nərgiz Məcidova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Redaktor:** **Ruhiyyə Məmmədli**

“Böyük xeyriyyəçi, öz dövrünün maarifçisi Hacı Zeynalabdin Tağıyev” mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / tərt.ed. N.Məcidova; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2022.-55 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## Tərtibçidən:

Maarifpərvər Bakı milyonçusu Hacı Zeynəlabdin Tağıyev tariximizin 1920-ci ilə qədərki dövründə, incəsənət və elm qarşısısında xidmətləri olmuş şəxsiyyətlərdəndir. Onun fəaliyyəti sovet hakimiyyəti dövründə diqqətdən kənar qalsada, ancaq müstəqillik illərində düzgün qiymətini almışdır. Rus imperiyasından azad olduqdan sonra əldə etdiyimiz dövlət müstəqilliyimiz, əlimizdən alınmış çox şeyi bizə qaytarıb, ağ ilə qaranı seçə bilməymizə kömək etmişdir. İllərlə adları qadağalar siyahısına düşən lakin qəlbimizdə yaşayan, keçmişdən bizə yadigar qalan Mikayıl Müşfiq, Hüseyin Cavid, XV yüzilliyin görkəmli diplomat qadını Sara Xatunu, Nizami, Xəqani, Məhsəti xanım, Şah İsmayıl, Fizuli, Vaqif, H.B.Zərdabi, X.B.Natəvan, Üzeyir Hacıbəyov, M.Ə.Rəsulzadə, Əhməd bəy Ağaoğlu, Əlibəy Hüseynzadə və yüzlərlə fəxr etdiyimiz şəxsləri unutmağa qoymamışdı. Onların arasında xalqımızın bir böyük oğlu da var idi ki, o, nə şairdi, nə yazıçı, nə bəstəkar, nə heykəltaraş, nə də dövlət xadimi idi. O, sadəcə olaraq zəhmətkeş, qəlbi dağlar qədər böyük, xalqı üçün yanan, xalq içindən çıxıb varlanan, lakin bu varını xalq üçün sərf edən böyük şəxsiyyət Hacı Zeynalabdin Tağıyev.

Bu il Mədəniyyət Nazirliyi UNESCO-nun 41-ci Baş konfransı çərçivəsində Azərbaycanın həmin tarixi şəxsiyyətini – mesenat H. Z. Tağıyevin anadan olmasın 200 illiyinin qeyd edilməsini 2022-2023-cü illər üzrə yubileylər proqramına salıb və UNESCO səviyyəsində beynəlxalq miqyasda qeyd edilməsini təsdiq edib. H.Z. Tağıyevlə bərabər Mədəniyyət Nazirliyi tərəfindən bəstəkar Fikrət Əmirovun 100 illiyinin keçirilməsi də UNESCO-nun 2022-2023-cü illər üzrə yubileylər proqramına salınıb və bu yubileylərin UNESCO səviyyəsində beynəlxalq miqyasda qeyd edilməsi təsdiq edilib.

Çünki, yubiley tədbirlərinin keçirilməsində əsas məqsəd Tağıyevin fəaliyyətini balalarımıza dolğun şəkildə çatdıqmaq onları bu mövzuda düşündürməkdir. Milyoncunun həyatından bəhs edən teatr səhnəsində qoyulan tamaşa, haqqında yazılan pyes, şeir, məqalələr və s. bu tədbirlərin həyata keçirilməsinə bir vasitədir. Respublika uşaq kitabxanası olaraq hazırladığımız vəsait də tədbirlərdən bəhs edir. Vəsait mədəniyyət müəssisələri, məktəb, lisey və s. kitabxanalarının istifadəsi üçün nəzərdə tutulub .

## Həyatı:

Kasıb olduqlarından ata-anam mənə sevgi, məhəbbət, nəvazişdən başqa heç nə verə bilməyiblər, məndə olan bütün yaxşı cəhətlər üçün onlara-məhəbbət və nəvazişlərinə borcluyam. Şübhəsiz bu da Allah - taalanın iradəsi ilə olub. Bütün işlərimlə yanaşı, fikrim-zikrim xalqımı xoşbəxtliyə çatdırmaqdır. Buna görə gecə-gündüz əlləşirəm. Məqsədə çatmaq üçün çoxlu məktəb açmaq lazımdır. Çoxlu kitab, məcmuə və qəzet çap etdirib, hər yerə - uzaq kəndlərə göndərilməlidir.

***Hacı Zeynalabdin Tağıyev,***
***"Tazə Həyat" qəzeti***

Tarixin səhifələrini vərəqlədikcə hələ neçə əsrlər bundan qabaq öz nefti - qara qızılı ilə şöhrət tapan Bakımızın, neftinin müxtəlif ölkələrə daşınması barədə qeydlərə rast gəlirik. 1847-ci ildə dünyada ilk dəfə neft quyusunun qazılması da Bakının şöhrətini hər yana yayaraq yerli əhali arasından insanları milyonlara, taxt-taca, səltənətə sahib etdiyini bilirik. Hələ uşaq vaxtlarında gündə bir qəpiyə palçıq qarışdırmaqla və daşımaqla işləməyə başlayan Zeynəlabdinin də qazdığı neft quyusunun fontan vurması onu bu milyonçulardan birinə çevirir. Bənna işləməklə qəpik-quruş

qazanan Zeynəlabdin öz zəhmətsevərliyi, fərasəti sayəsində milyonçu Hacı Zeynəlabdin Tağıyevə çevrilir, şöhrət qazanır.
Bəzi mənbələrdə 1838-ci ildə Bakı şəhərində anadan olduğu qeyd edilsədə, müasir tədqiqatçılardan M. Əliyevin "Maarifpərvər H.Z.Tağıyev" adlı məqaləsində 1823-cü ildə anadan olduğu 1924-cü ildə 101yaşında sətəlcəm xəstəliyindən vəfat etdiyi qeyd edilir. Lakin 1900-cü ildə Nəriman Nərimanov və 1903-cü ildə Axund Yusif Talıbzadə tərəfindən yazıldığı ehtimal olunan Hacı Zeynəlabdin Tağıyevin tərcümeyi-halında onun hicri-qəməri tarixlə 1256, miladi tarixlə isə 1838-ci ildə anadan olduğu göstərilir. Filalogiya elmlər namizədləri Əbülfəz Haşımoğlu, Əkrəm Bağırov, Paşa Əlioğlunun tərtibçiliyi ilə "Hacı Zeynəlabdin Tağıyev" kitabında tərtibçilərin birinin Tağıyevin qızı Sara xanımla söhbət edərkən də o atasının 1838-ci ildə anadan olduğunu söyləmişdir.
Hələ kiçik yaşlarından - 10 yaşından atası Məhəmmədtağı tərəfindən bənna şagirdliyinə verilən Zeynalabdin ilk günlər 6 qəpiyə işləyib, palçıq qarışdırmaq, ustaya daş və kərpic verməklə məşğul olur. Öz zəhməti və işgüzarlığı hesabına 1873-cü ildə topladığı pulu ilə neft quyusu qazdıran Hacının neft fontanları onu milyonçu Hacı Zeynalabdin Tağıyevə çevirir. Lakin Hacı heç vaxt kasıb günlərini unutmayıb, milyonlarını xalqın maariflənməsi, təhsil alması yolunda xərcləməkdən qürur duyur. Özü savadsız olduğundan savadsızlığın acısını duyan Hacı kasıb, yetim oğlan və qızlarımızın təhsil almasına böyük qayğı göstərir. Avam, qatı mövhumatçıların dedi-qodularına, müxtəlif çətinliklərə baxmayaraq Axund Əbuturab, Qazı Mir Məhəmmədkərim ağa Mir Cəfərzadənin yardımı ilə öz xərcinə qız məktəbi tikdirir və 7 oktyabr 1901-ci ildə qız məktəbinin açılışı olur.
Açılış münasibəti ilə Peterburqdan, Tiflisdən, Zaqafqaziyadan, Bağçasaraydan, Bakı quberniyasının baş keşişi və s. kimi

maarifpərvərlər onu təbrik edirlər. Gələn təbriklərə isə Hacı belə cavab verir:
“Bu məktəbin güşadı barəsində sizin bu növ izhari-rizaməndlik və məmnuniyyətiniz və bu məktəbə olan məhəbbət və hissiyyatınız məni bais edir ki, gələcəkdə mən bir mərtəbə dəxi bu məktəbin imarətinin üstünə vaxtı ilə bu məktəbi müsəlmanlar üçün ünasiyyə mədrəseyi rüşdiyyəsi (gimnaziyası) qərar verəm. Və sizin bu növ hümmətiniz mənim bu fikrimin əncama gəlməyinin dəxi də təcilinə bais olacaqdır.
Ümumilikdə Hacının maarif sahəsində xidmətləri çox geniş və çoxşaxəlidir. 30 min manatdan artıq xərc çəkib yetim və kasıb uşaqlar üçün Mərdəkanda kənd təsərrüfatı təmayüllü internat məktəb açır, teatr binası tikdirib artist və yazıçıların istifadəsinə verir, qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan alim və şairlərinin əsərlərini azərbaycanca ya tərcümələri çap etdirir. 1905-1911-ci illər İran məşrutə hərəkatından sonra, İranda onlarla məktəbin açılmasına yardım göstərir, onları məktəb ləvazimatı ilə təmin edir.
Bakı ətrafı kəndlərdə axar suyun yoxluğu dəyirmanı qurmağa imkan vermirdi. Bunu nəzərə alaraq Hacı Mərdəkanda 1899-cu ildə dən üyüdən elektrik dəyirmanı da tikdirir və qəsəbənin əhalisinə elektrik işığı verir.

***12.II.1908***

Fəxrlə adını çəkdiyimiz Hacı Zeynalabdin Tağıyevin Azərbaycanda maarif və mədəniyyət sahəsində xidmətlərini Rusiyada, İranda, Türkiyədə, Misirdə, Ərəbistanda demək olar ki, bütün müsəlman aləmində çox yüksək qiymətləndirirlər. Təsadüfi deyil ki, büyük nüfuza malik bu sərmayədarı Bakıdakı müsəlman, rus, tatar, yəhudi məktəbləri özlərinə fəxri sədr seçmişdilər. Bu gün bizlər də hələ yüz il bundan əvvəl Bakı

neftindən gələn gəliri Azərbaycanın qeyri neft sektoruna yönəldib dövləti inkişaf etdirməyi dərk etmiş maarifpərvər milyonçu Hacı Zeynalbdin Tağıyevi gələcək nəslə tanıtmalıyıq. Hacı Zeynalabdin Tağıyev Azərbaycan tarixi və mədəniyyətinə xüsusi səhifə yazmış şəxsiyyətlərdəndir. Öz zəkası, fitri istedadı sayəsində adi bənnalıqdan milyonçu səviyyəsinə yüksələrək nüfuzlu bir şəxsiyyətə çevrilən milyonçu, qazandıqlarını millətin maariflənməsi, mədəniyyətin tərəqqisi yolunda səxavətlə xərcləyərək Hacı Zeynalabdin Tağıyev adını Azərbaycan və Azərbaycandan çox-çox uzaqlarda tanıtdırmışdır. Onun fəaliyyətində xalqın ehtiyacı öz şəxsi mənafeindən qat-qat üstün olmuşdur. İrəli sürdüyü fikirlər çox vaxt yerli və əcnəbi kapitalistləri qorxuya saldığından, həmin kapitalistlər hər vasitə ilə ona mane olmağa çalışsada, bütün mürəkkəbliklər qarşısında Hacı Zeynalabdin Tağıyev öz əməlləri ilə xalqın əbədi rəğbətini, hörmətini qazanmağa nail olmuşdur.

Erkən yaşlarında anasını itirən İçərişəhərdə başmaqçı işləyən atasının tərbiyəsi ilə böyüyən Zeynalabdin, əmək fəaliyyətinə palçıq daşıyan kimi başlamış, xırda alver ilə məşğul olmuş, son dərəcə güclü iradəsi, dözümü bacarığı sayəsində az keçmədən, bir neçə dükan sahibi və ağ neft istehsalçılarından olmuşdur. 1870-ci ildə artıq iki qazanlı ağ neft zavoduna sahib olan Tağıyev dövründə Rusiyada tətbiq edilən *“Ticarət və digər işlərlə məşğul olmaq hüququ üçün gömrüklər haqqında əsasnamə”* 1876-cı ildə Azərbaycana da şamil ediləndə ikinci gildiya taciri zümrəsinə qəbul edilmişdir. O özünün şəxsi işlərindən çox xalqının rahatlığını düşünmüşdür. Ona səxavətli olmağı, xeyriyyəçilik xüsusilə də maarifçilik işlərinə qoşulması öz dövrünün ən işıqlı ziyalılarından sayılan Həsən bəy Zərdabi ilə qonşu olması təsir etmişdir.

Gördüyü xeyriyyə və maarifçilik işlərinə görə 1900-cü ildə Hacı Zeynalabdin Tağıyevin nəsli də fəxri vətəndaş adına layiq görülmüşdür. Ona 1907-ci ildə dördüncü dərəcəli həqiqi mülki müşavir rütbəsi verilir ki buda neft sənayeçiləri arasında Hacı Zeynalabdin Tağıyevdən başqa ancaq E. Nobelə verilmişdir. Senatın 8 fevral 1910-cu il tarixli fərmanı ilə isə Hacı Zeynəlabdin Tağıyevin nəsli də zadəgan rütbəsinə layiq görülür. Əvvəlcə atasının yanında fəaliyyətə başlayan Zeynalabdin daha sonra on iki yaşında bənna yanında daşyonma sənətini, on beş yaşında bənnalığı öyrənmiş, Bakıda bir çox binaların inşa olunmasında iştirak etmişdir. 1973-cü ildə qazdığı ilk neft quyusunun fontan vurması isə onun həyatında dönüş yaratmışdır. Onu milyonçu Hacı Zeynalabdin Tağıyevə çevirmişdir. H.Z.Tağıyev 1894-cü ildə Mərdəkanda Kənd təsərrüfatı məktəbinin, 1896-cı il Peterburq müsəlman xeyriyyə cəmiyyətinin, 1901-ci ildə Bakıda ilk qız məktəbinin, 1883-cü ildə ilk teatr binasının, 1905-ci ildə ilk Müsəlman Xeyriyyə Cəmiyyətinin əsasını qoymuşdur. 1898-ci ildə isə “ Kaspi ” mətbəəsini alaraq həmin adla Azərbaycan ziyalılarının ixtiyarına vermişdir. Milyonçu “Quranı” ilk dəfə Azərbaycan dilinə tərcümə etdirmiş, Məhəmməd Hadinin ilk kitabı "Firdovsi-ilhamat" ı öz xərci hesabına Kaspi mətbəəsində çap etdirir. Xalqı Tağıyevi, Bakı sərmayəçiləri içərisində daha çox xalqına, camaata yaxın olduğu üçün çox sevirdi. Müasirləri isə böyük Azərbaycan mesenatı və maarifçisi, türk-islam dünyasının tanınmış filantrop-xeyriyyəçisi, sənaye təşkilatçısı, Vətənimizdə milli sahibkarlığın görkəmli nümayəndəsi Hacı Zeynalabdin Tağıyevin millət və insanlıq qarşısındakı xidmətlərini yüksək qiymətləndirərək onu “Qafqaz müsəlmanlarının fəxri”, “müsəlmanların başçısı”, “islamın böyük fəxri”, “millətin müqəddəs atası”, “ fəqir-füqəranın (kasıb və kimsəsizlərin) hamisi və ümidi ”, “ müsəlmanların beynində elm və mərifət nuri

işıqlandıran ", "millətin mənəvi və mehriban atası", " birinci xeyirxahi-millət və maarifpərvər ", " millətin fəxri", "Zaqafqaziyada şöleyi-elm (elm işığı) yandıran", " Zaqafqaziya müsəlmanlarını xabi qəflətdən (qəflət yuxusundan) oyandıran ", "müsəlmanların xeyirxahı", "müsəlmanların ünasiyyə tərbiyəsinin (qadın təhsilinin) müəssisi və banisi", " millət bəzəyi, ruzigarın nadir əsəri" və s. bu kimi yüksək epitetlərlə öyür, təqdir edirdilər.

**Yubiley tədbirlərinin keçirilməsi:**

***"... Millət uğrunda bütün ömrünü sərf edən şəxsi millət unutmaz" sözlərini balalarımıza nəinki düşündürmək və hətta onlara göstərmək lazımdır.***

***Nəriman Nərimanov***

*İctimai-siyasi xadim, yazıçı, publisist, həkimi Azərbaycan SSR-in 1-ci Xalq Xarici İşlər Komissarı; Azərbaycan SSR İnqilab Komitəsinin Sədri; Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1-ci Sədri,* İçtimaii xadim Nəriman Nərimanov bu fikirləri öz dövrü üçün söyləmişdir. Həqiqətən Hacı Zeynalabdin Tağıyevin gördüyü işlər gələcək nəslə bir örnəkdir. Xalqımız daim belə oğulları ilə fəxr edibdir. 1923 (1938) ildə anadan olmuş böyük maarifçi, messenat Hacı Zeynalabdin Tağıyevin bu il 200 illik yubileyinin UNESCO səviyyəsində beynəlxalq miqyasda qeyd edilməsi nəzərdə tutulub. Öz maarifpərvərliyinə, xeyriyyəçilik fəaliyyətinə görə yaşadığı dövrdə nəinki Bakıda həmçinin rus sərmayədarları arasında da tanınmış Hacı Zeynalabdin Tağıyevin yubileyi ilə bağlı mədəniyyət müəssisələrində, kitabxanalarda təhsil müəsisələri ilə birgə il ərzində müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulur. Bu böyük şəxsiyyətin kitabxanada oxuculara tanıdılması

üçün kitab sərgiləri, rəsm sərgisi, ədəbi bədi gecə, haqqında yazılmış əsərlərin, kitabların icmalı və müzakirəsinin keçirlməsi, konfransların təşkili, slayd və video roliklərin hazırlanması məqsədəuyğundur. Keçiriləcək sərgiyə başlıq kimi aşağıdakı sitatları təqdim edirik:

- "Əməlləri ilə xalqın hörmətini qazanmış insan",
- "Xeyirxahlıq simvolu",
- " Millətin atası ",
- " Dövrünün müdrik ağsaqqlı ",
- " Zəmanəsinin məşhur şəxsiyyəti "və s.

Kitabxanada yubilyarın 200 illik yubileyi münasibətilə hazırlanması nəzərdə tutulmuş "Hacı Zeynalabdin Tağıyev-200" başlıqlı sərgini aşağıdakı kimi təqdim edə bilərik.

1. H.Z. Tağıyev – 200
2. Tağıyevin portreti
3. Kitabların nümayişi
4. Görkəmli insanların H.Z. Tağıyev haqqında söylədikləri kəlamlar
5. Dövri mətbuatda nəşr olunan məqalələr

## Kitab sərgisi

























Elektron resurslara tələbatın artdığı bir dövrdə bu sərginin elektron variantının hazırlanmasıda oxucuların kitabxanaya cəlb olunması, xalqımızın maarifpərvər oğlunun tanıdılması üçün maraqlı olar.

## Hacı Zeynalabdin Tağıyev haqqında deyilmiş fikirlər:

Azərbaycan xalqının böyük oğlu Hacı Zeynalabdin Tağıyevin evinin bərpası bizim mənəvi borcumuz idi. Öz zəhməti hesabına böyük maliyyə hesabı qazanmış bu şəxsiyyət Azərbaycan xalqı haqqında müsbət fikir formalaşdırmış, gənclərin maariflənməsinə böyük töhfələr vermişdir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Mədəni cudi kərəmdir Hacı Zeynalabdin, Fəth olur guya onun dəstilə hər dəm babi-din. Eyləyib Allah səni biçarələrçün dəstgir, Çəkməsin guya sənin dövrəndə zillət bir fəqir.

**Hüseynqulu Kərbalayı Həmid oğlu**

Ümumu xeyirdən ötrü bu əsəri - insafımız rəva görmüyor ki, cənab H.Z. Tağıyevi nəzərinizdən keçirtməyək, ta gələcəkdə millətin balaları bu cənabın millətə qeyrətini, vətənə məhəbbətini, insana himmətini və həmiyyətini tarixdə oxuyub, gözləri rövşən və qəlbləri şad olsun.

Hacı elə-belə adam deyil. O, Azərbaycan xalqının heç bir qatışığı olmayan təmiz. Saf bir zatıdır. Bu böyük insan hər birimizdən on dəfə artıq vətənpərvər, on dəfə artıq maarifçi, on dəfə artıq inqilabçıdır.

**Nəriman Nərimanov,**
*Həkim, yazıçı, publisist*

Müxtəsər yoxdu bu Qafqazda himmət sənə fərd,
Bəlkə çox az tapılar ruyi-cəhanda belə mərd.
Hacıyi, möhtərəm adı onun Zeynəl-İbad,
Tağıyevdir ləqəbi bari-xuda yövmi-tənad.

**Hacı Mir Seyfəddin Seyidov**

Təhsilin qatı tərəfdarı olan H.Z.Tağıyev onunla maarif məsələləri ilə əlaqədar təmasda olanların hamısını təəccübləndirdi. Heç bir təhsil almayan bu şəxsin fitri ağlı maarifin böyük qüdrətinə inamla və əminlik enerjisi ilə doludur. Müasir ziyalı insanın dilindən eşidilə bilən fikirləri söyləyərkən, təhsilin ehtiyac və tələbatını çox vaxt ödəyən H.Z.Tağıyev məktəbə bu qədər pərəstiş etməklə, onu həqiqətən ilahiləşdirməklə öz həmsöhbətlərini heyrətə gətirir.

**Əlimərdanbəy Topçubaşov,**
*Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri*

Hacı Zeynalabdin Tağıyevin müsəlman milləti üçün elədiyi xidmətlərini durub burada saymaq fikrinə düşsək, heç olmasa bir ay qəzetimizi ancaq elə bu təfsilatla doldursaq, yenə hamısını deyə bilmərik ”

**Haşım bəy Vəzirov**
naşir, yazıçı, tərcüməçi

Ürəyim istəyirdi ki, Hacı Zeynalabdin Tağıyevin fəaliyyəti haqqında bir kitab yazım. Və onun xidmətləri orada müfəssəl şəkildə cəm olsun. Tağıyev bir rəmz olaraq insanların qəlbində əbədiləşmişdir.

**Elşad Səmədzadə**

# HACI ZEYNALABDİN TAĞIYEVİN MÜDRİK KƏLAMLARI

◆ Bütün işlərimlə yanaşı, fikrim-zikrim xalqımı xoşbəxtliyə, işıqlı gələcəyə, tərəqqiyə çatdırmaqdır. Buna görə də gecə-gündüz əlləşirəm. Məqsədə çatmaq üçün çoxlu məktəb açmaq lazımdır. Çoxlu kitab, məcmuə və qəzet çap etdirilib, hər yerə uzaq şəhər və kəndlərimizə göndərilməlidir.

◆ Məqsədə nail olmaq üçün mən belə hesab edirəm ki, xalqımın tərbiyəsi (təhsili) və mariflənməsi lazımdır. Xalqın gələcək xoşbəxtliyi dəyanəti və irəliləyişi təhsillə, maariflə bağlıdır.

◆ Anası savadsız olan xalq kordur.

◆ Qadınların həyatına işıq gətirmək lazımdır.

◆ Mən öz vətənimi sevirəm, gələcəkdə keçəcəyim imtahanlar nə qədər ağır olsa da, mən öz vətənimdən əl çəkmirəm. Burada mənim atamın qəbri vardır. Mənim qəbrim də burada olmalıdır.

◆ Pul qazan, amma şərəfini itirmə, pul bir gün gedər, nə vaxtsa gələr amma şərəf gedər.

◆ Məni onun ayağı altında basdırın, onun ayağı bildiyini mənim başım bilmir.

◆ Mənə bir hərf öyrədənin qulu olaram.

◆ Məni ancaq xalqımın xoşbəxtliyi, onun varlığı maraqlandırır. Xalqımın inkişafı üçün əsil şərt onun tərbiyə və təhsilidir.

◆Müsəlman qadınını düşdüyü qapalı həyatdan çıxarmaq üçün tək bir yol var, oda yalnız məktəb və məktəbdir. Ancaq bu məktəbi elə təşkil və təchiz etmək lazımdır ki, müsəlmanlar ona hüsnü-rəğbətlə, xeyirxahlıqla yanaşsınlar və tam inamla qızlarını ora göndərsinlər.

◆ Mənim böyük arzum və məqsədim Bakı şəhərinə təmiz çeşmədən içməli suyun gətirilməsidir. Bu əsasa görə yorulmadan zəhmətimi və nə qədər lazımdır pulumu əsirgəməyəcəm.

◆ Övladlarım! Görürsünüzmü ki, bənim sağ əlim dini-islamın rükni və madəri-iftixarı olan Qurani-əzimin üstündədir və sol əlimdə tutduğum isə qəzetədir. Övladlarım! Mənim sizə axırıncı nəsihətim budur ki, bu Quranı həmişə sağ, qəzetəyi isə sol əlinizdə tutub millətə sidq və sədaqət ilə xidmət edəsiniz.

H.Z. Tağıyevin 200 illik yubiley münasibətilə keçirilən tədbirlər




zamanı onun xalqı üçün gördüyü işlərdən bəhs edən məlumatlardan hazırlanmış bukletlərin, slaydın hazırlanması kitabxanada təbliğat işlərində maraqlı olar. Kitabxanada oxucular üçün yazıçı Teyyub Qurbanın Tağıyevə həsr etdiyi "Yaşayan ömür" mənzum pyesi əsasında hazırlanmış tamaşaya baxış da təşkil edə bilərik.

**Qurban T. Hacı Zeynalabdin Tağıyev: Yaşayan ömür // Məcra. - Bakı : Şirvannəşr, 2004. - S. 3-87.**

Tamaşaya baxış kitabxanada oxu zalında proyektor vastəsi ilə oxuculara nümayiş etdirilir. Sonra tamaşaçılar arasında pyesin müzakirəsi keçirilir.

**Kitab müzakirəsi**




Tamaşa ilə yanaşı kitabxanada oxucularla Teyyub Qurbanın 2007-ci ildə Azərbaycan Dövlət Pedoqoji Universiteti nəşriyyatında çap edilmiş ikihissəli mənzum pyesi "Yaşayan ömür" kitabının müzakirəsni keçirmək də məqsədəuyğundur.

https://drive.google.com/file/d/14_H__APGZLcLkrmxW7fsdbdBefvF4__R/view?usp=sharing

https://drive.google.com/file/d/1nx3Nfeh3jmuPQeAcMPc9RlF659ooYlYM/view?usp=sharing

Kitabxanaçı böyük şəxsiyyət Nəriman Nərimanovun "... Millət uğrunda bütün ömrünü sərf edən şəxsi millət unutmaz" sözləri ilə sual cavab gecəsini də açıq elan edə bilər. Sualları bu mövzular ətrafında qura bilərik:
*"Tağıyev kimdir", "Ölkəsi üçün hansı işləri görmüşdür"? "Tikdirdiyi binalar hansılardır"?, "Necə milyonçu olmuşdur"?*
Oxucuların Tağıyevi necə yaxından tanıdığını öyrənmək üçünsə onlara anket sorğusu təqdim edirik:
1) H.Z. Tağıyev kimdir?
**a) milyonçu**
b) yazıçı
c) pedoqoq
2)Neçənci ildə anadan olmuşdur?

a) 1923
**b)1823 (1938)**
c)1841

3) H.Z.Tağıyev milyonçu edən nə oldu?

a) su
**b) neft**
c) iqtisadiyyat

4)Sizdə Tağıyev  kimi milyonçu olmaq istiyərsinizmi?

a) hə
b) yox

5) Tağıyev kimi milyonçu olsanız hansı işləri görərdiniz?

☺ ________________________________________

5) Onun Bakıda tikdirdiyi hansı binaları tanıyırsınız?

☺ ________________________________________

6) H.Z. Tağıyev haqqında  yazılmış əsərlərin adlarını çəkə bilərsinizmi?

☺________________________________________

H.Z. Tağıyevin 1901-ci ildə 300 min manat xərc çəkib Bakıda tikdirdiyi bina hansı idi?

**a) Bakıda qızlar məktəbi**

b) Mərdəkanda internat

c) Ədəbiyyat muzeyi

7) H.Z Tağıyevin mülki yerində indi hansı muzey yerləşir?

**a) tarix**
b) ədəbiyyat
c) xalça

**Keçiriləcək tədbirlər:**

Məktəblilərlə ucadan oxu

Zamanlarda söz, sənət adamlarının bir-birinə, xüsusən də irəlidə olan, əməli, gördüyü işləri ilə fərqlənən insanlara şeir, poema, yazı ithaf edib, əsəri boyu həmin şəxsin tərifini göylərə qaldırdığının şahidi olmuşuq. Çünki əsər yazan sözü ilə, ünvanına yazılan da əməli, işləri ilə xalqı üçün sevimli və əziz olublar. Vaxtıilə böyük şairimiz Hüseyn Cavid də Tağıyev haqqında təqribən əlli misra farsca bir şeir yazmış və Hacının mədəniyyət, maarif və incəsənətin inkişafına göstərdiyi xidmətlərini yüksək qiymətləndirmişdir. Müəllif burada Tağıyevin millətin aydınlanması, oxuması üçün gördüyü işləri önə çəkib və elə buna görə də onun şəxsini uca tutaraq fikirlər söyləmişdir. Kitabxanada bu şeirin məktəblilərlə ucadan oxusunu təşkil edə bilərik. Sonra isə suallarla onların fikirlərini öyrənə bilərik. *Şeirin müəllifi kimdir?, Hüseyn Cavid bu şeiri kimə həsr etmişdir?, niyə məhz Tağıyevə həsr etmişdir?, Şeirdə Tağıyev necə tərənnüm edilir?, və s.*

Ədiblərin qələmi belə hekayə yazdı,
Bülbüllərin dilindən gülzarə namə yazdı.
Şən nəğməli tutilər yaşıl rəngli qələmlə,

Çox bəzəklər yaratdı, gülşənsəraya yazdı.
Hər ölkədə, diyarda, şəhər, kənd məktəbinə,
Namələrlə bərabər çoxlu xitabə yazdı.
Məclislərdə deyilən sözlər, xitabələrdən,
Onun üçün katiblər bir çox hekayə yazdı.
Naxçıvanda gözəl bir yeni məktəb açıldı,
O böyük şəxs adına daşda abidə yazdı.
Müsəlmanlar onunla sevindi, fərəhləndi,
Sözsüz bu bir dərmandır, xalqın dərdinə yazdı.
Budur o səxavətli Hacı Zeynalabdin,
Soyadı Tağıyevdir, həmin ünvanə yazdı.
Min manat bəxşiş verib, böyük bir yardım ilə,
Yerlərdə və göylərdə bir parlaq ayə yazdı.
Tükənməz ətasilə ümumxalq arasında,
Günəş kimi nur saçmış geniş səmayə yazdı.
Qızların təhsiliüçün bir çox məktəblər açdı,
Onlar üçün arxayın, möhkəm himayə yazdı.
Qadınlara oxumaq, böyük ya kiçik olsun,
Daha lazımdır hər bir şeydən ziyadə yazdı.
Bakıda mədəniyyət işıqları yandırdı,
Mətbuat onun haqda hər gün bir namə yazdı.
Dəmiryol işlərini əlinə almasıyla,
Şəni müsəlmanların qalxdı ucayə yazdı.
Kimdir Hatəm Tai ki, ona bərabər olsun,
Tayı yox, Süleymana onu həmpayə yazdı.
Avropadakı məşhur jurnal, qəzetlər belə,
Haqqında çox təriflər deyib məqalə yazdı.
Nuşirəvana bənzər, ölməzdir o, yaşayar,
Adı itiməz, ömrünə olmaz nəhayə yazdı.
Səxavətin gücilə bütün dərdlər sağalar,
Səxavətlə mis belə dönər kimyayə yazdı.
Elm əsasını qoyan, maarifin hamisi,

Elm əhlinə süd verən mehriban dayə yazdı.
Bir çox pullar sərf etdi elm, hünər yolunda,
Müdrik adı, şöhrəti qalxır səmayə yazdı.
Biliyin faydası var həm dünya, həm üqbada,
Biliklə əldə olar məqsəd və qayə yazdı.
Elm – gülüstandırsa, o, elmin bağbanıdır,
Çiçəklənəcək məktəb yaxın zəmanə yazdı.
Ağaclar yaşıllaşır elmin işığı ilə,
Geyindirir onları yaşıl qəbayə yazdı.
Çox çəkmədən ağaclar gözəl meyvələr ilə,
Rəngarəng incilərdən alar pirayə yazdı.
İndi Qafqaz əhlinə vacibdir elm oxumaq,
Göz açmalıdır əhli işıq dünyayə yazdı.
Başqa millətlər hamı bəhrə almış elmdən,
Bizə qalmışdır ancaq baxmaq ətayə yazdı.
Xarici xalqlar daim hərəkətdə zamantək,
Ümidi müsəlmanın qalmış ah-vayə yazdı.
İndi hamıdan artıq elm gərəkdir bizlərə,
Savadsızlıq qul edər, salar bəlayə yazdı.
Naxçıvanda başlanmış yeni tədbir bu yolda,
Şükür olsun o qüdrətli, böyük Xudayə yazdı.
Digər xalqlartək bu xalq elmə sahib olacaq,
Bu xalqın ümidinə yoxdur nəhayə yazdı.
Xalq elçiləri ömrü uzun olsun, əbədi
Elmin tələbləri də çatsın səfayə yazdı.
Çox çəkməz ki, bizlər də mədəniyyət alarıq,
Şükür böyük Allaha, o bihəmtayə yazdı.
Hacı Zeynalabdin uzun illər ömr etsin,
Rəhim Allahdan olsun ona himayə yazdı.
Tai istərdi olsun səxavətdə ikinci,
Damla olmaz bərabər sonsuz dəryayə yazdı.
Ondan minlərlə yardım edildi məktəblərə,

Çatdıraq Şərq xalqını parlaq ziyayə yazdı.
Durduqca dünya, adı çıxmayacaq yadlardan,
Heç vaxt olmayacaq o, xalqa biganə, yazdı.
Allah bəndəsi içrə sən yeganə yaranmış,
Dövran şahıtək saldın sən yerə sayə yazdı.
Adın böyük, lakin çox təvazökar olmusan,
Səni kiçildən nadan düşsün bəlayə yazdı.
Oxutdun yeni sistem müəllim məktəbində,
Baxma, deyildi sənə minlər kinayə, yazdı.
Göndərildi bu şeir sagirdindən Sidqiyə,
Nöqsanlı olsa da o, böyük ustadə yazdı.
Bu sözləri ən kiçik şagirdin yazmış sənə,
Odlu şam ətrafında uçan pərvanə yazdı.

**Oxucu konfransı:**

Kitabxanalarda təbliğatın şifahi formalarından biri də oxucu konfranslarıdır. Kitabxanada Hacı Zeynalabdin Tağıyevin anadan olmasının 200 illik yubileyi ərəfəsində böyükyaşlı oxucularla "*oxucu konfransı*" təşkil edə bilərik. Konfransın mövzusu üzrə fondda olan kitablar seçilib oxuculara mütaliə etmək üçün tövsiyə edilir. Çıxışa hazır olan oxucuların sayı tam öyrəndikdən sonra konfransın keçiriləcəyi vaxt müəyyən edilir, elan yazılır. Konfransın mövzusuna uyğun olaraq Hacı Zeynalabdin Tağıyevin fəaliyyətini əks etdirən mühazirə, söhbət, sərgi, tövsiyə siyahıları, kitabxana plakatları, bülletenlər və ya divar qəzetləri hazırlanır. Bədii və sənədli filmlərin, slayd və videoçarxların nümayişi ilə konfrans davam etdirilir.

## Kitab müzakirəsi

Öz zəkası, fitri istedadı sayəsində adi bənnalıqdan milyoncu səviyyəsinə yüksələn, xalq arasında nüfuzlu bir şəxsiyyətə cevrilən, qazandıqlarını millətin maariflənməsi, mədəniyyətimizin tərəqqisi yolunda səxavətlə xərcləyən Hacı Zeynalabdin Tağıyev şəxsiyyətinin kitabxanada təbliği biz kitabxanaçıların vəzifə borcudur. Çünki şöhrəti Azərbaycandan cox-cox uzaqlarda yayılan milyonçunu, on illərdən artıq yalnız yaşlı nəslin nümayəndələri tanıyırdısa, qürurla deyə bilərik ki günümüzdə artıq gənc nəslimiz də tanıyır. Onun haqqında yazılan əsərlər şeir və hekayələr, məqalələr, çəkilən sənədli filmlər, teatrda yaradılan işıqlı obrazı sayəsində.

Vaxtı ilə Kaspi qəzetində onun haqqında deyilən " Əgər biz cənab Hacının himayədarlığı və xəlqə olan səxavətindən yazsaq, onda gərək qəzetimiz bir il bütün saylarını buna həsr edə " fikiri onun xalqının yolunda gördüyü işlərin sayagəlməzliyini göstərir.

Öz dövründə Üzeyir Hacıbəyli kimi dahi bəstəkar ona musiqi əsəri, Nəriman Nərimanov nəsr əsəri, Hüseyin Cavid kimi gözəl şair ona poeziya nümunəsi həsr etmişdir. Azərbaycanın görkəmli xeyriyyəçisi, dünya şöhrətli messenat, xalqımızın maarif və mədəniyyətinin inkişafında misilsiz xidmətləri olmuş Hacı Məhəmmədtağı oğlu Zeynəlabdin Tağıyevin həyat fəaliyyətinə və yubileyi ilə əlaqədar keçirilən tədbirlər kitabxana üçün əhəmiyyətlidir. Oxuculara Tağıyev mədəniyyətini, bir xeyyriyyəçi olaraq onun xalqı üçün gördüyü işləri tanıtmaq üçün Hacı Zeynalabdin Tağıyevin Azərbaycanda teatr sənətinin inkişafındakı xidmətlərindən, tikdirdiyi teatr binasından danışmaq yerinə düşərdi.

Məlumdur ki, ilk qədim teatrlar antik dövrlərdə yaranıb. Sonralar bir sıra dövlətlərdə kübar cəmiyyətlərdə teatrlar açılıb. Teyyub Qurbanın Hacı Zeynalabdin Tağıyevə həsr edilmiş " Əbədiləşən ömür " adlı poemasını səhnələşdiririk.

( Səhnə qurulur oxucu gəlir:)

Aparıcı: Səhnəyə xalq üçün doğulan övlad
Böyük bir ölkəyə yaranar qanad.
Oxucu: Başmaqçı Tağının peşəsi bəlli.
Oğlu Zeynalabdin ona təsəlli
Oxucu: Hələlik şagirddir usta yanında
Öyrənmək həvəsi qaynar qanında
Oxucu: Hamıdan gec yatıb tez oyanır o.
Palçıq da daşıyır, daş da yonur o.
Oxucu: Elə ki, şagirdlik sınağı bitdi,
Usta atsına razılıq etdi:
Usta: Ay Tağı, fərzəndin ağıllı, qoçaq,
Sənətin sirrinə vaqif bir uşaq

## Qızlar məktəbi

Hacı Zeynalabdin Tağıyevin qızlar məktəbi — Azərbaycanın maarifçilik tarixində, dünyəvi təhsilin inkişafında, Azərbaycan qadınının təhsil almasında böyük rol oynamış bir məktəbdir. Məktəb görkəmli mesenat Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü və dəstəyi ilə açılmışdır. Bu məktəb müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbi hesab edilir. Məktəbin tikilməsinə icazəyə, məktəbin binasının yerinin müəyyən edilməsinə və tikilişinə 4 il vaxt sərf olunur. Müsəlman qızlar məktəbi üçün bina düz İsmailiyyə binasının yanında tikilir. Hacı bu işi memar İ.V.Qoslavskiyə həvalə edir. O, məktəbin ərsəyə gəlməsinə 183 min 533 rubl pul xərcləyir. Məktəbin ərsəyə

gəlməsində dövrün böyük ziyalıları da iştirak edir. Həsən bəy Zərdabinin həyat yoldaşı Hənifə xanım bu təşəbbüsü çox bəyənir və Hacıya yardım göstərir, məktəbin müəllimlərindən biri, sonra da müdiri olur. Hacının ikinci yoldaşı Sona xanım Tağıyeva, Əlimərdan bəy Topçubaşov və başqa ziyalılarda bu işi alqışlayır, məktəbin tez açılması üçün əllərindən gələni edirlər. 1901-ci ildə bütün şəhər əhalisi məktəbin açılışına toplaşır. "Kaspi" qəzeti həmin hadisəni belə təsvir edərək yazır: "Nikolayevski küçəsindəki gözəl imarət bayraqlarla bəzənmişdi. İkinci mərtəbədəki böyük zal gündüz saat 12-də dəvətlilərlə və şəhərin əyan-əşrəflərilə dolmuşdu. Məktəbin yaradılması, tikilməsi barədə danışıqlardan sonra çıxışlar oldu. Məktəbdə oxuyacaq qızların xor dəstəsi bir neçə Azərbaycan mahnısı ifa etdi. Sonra məktəbin ünvanına göndərilən təbrik teleqramları oxundu. Əlimərdan bəy Topçubaşovun oxuduğu təbriki Həsən bəy imzalamışdı. Məktəbin şərtlərinə görə qızlar elə məktəbin özündə qalırdılar. Tədris kursu isə müsəlman ailəsinin tələbləri nəzərə alınmaqla əl işləri və evdarlıq üzrə əlavə siniflə rus ibtidai məktəblərindəki kurs əsasında qurulmuşdu. Qızlar təhsilə 7 yaşında başlamalı və 4 il oxumalı idi. Dərslər rus dilində aparılırdı. Bərabər Azərbaycan dili və din dərsləri keçirilirdi. İlk vaxtlarda 50 şagirdin qəbulu nəzərdə tutulmuşdu ki, onların 20-si Hacının ianəsi hesabına təhsil alır və onlar da pansionda qalırdılar. Lakin qəbul üçün 50 nəfər nəzərdə tutulsa da, elə birinci il ərizə verənlərin sayı 58-ə çatır. Müsəlman Şərqində yaradılan ilk qız məktəbi müsəlman ənənələrini Avropa modernizmi ilə bacarıqla birləşdirərək Azərbaycanda dünyəvi qadın təhsilinin əsasını qoyur. Məktəbdə keyfiyyətli tədris üçün Rusiyanın müxtəlif bölgələrindən müəllimlər dəvət olunur. Qızlar Avropa üslubunda olan ağ yaxalıqlı, başlıqlı yaraşıqlı uniforma geyinirdilər. Bolşevik işğalından sonra sovet məktəblərinin geyimi də buradan götürülür. Tağıyev kasıb

ailələrdən olan qızların təhsil alması üçün varlı ailələrdən olan qızların qəbulunu məktəbə məhdudlaşdırır. Bununlada məktəbin nüfuzu getdikcə artır, yeddi yaşına çatar-çatmaz valideynlər qız övladlarının əlindən tutub Hacının məktəbinə gətirirlər. Bir neçə ildən sonra Hacı böyük məbləğdə pul verib məktəbə Qızlar seminariyası statusu alır və məktəb 6 illik olur.

Böyük mesenat Hacı Zeynalabdin Tağıyevin milləti üçün açdığı bu işıqlı yolu Azərbaycan Demokratik Respublikası hökuməti də sonra davam etdirir. 1919-cu ilin əvvəllərində Bakı qadın müəllimlər seminariyası ümumi müəllimlər seminariyasına çevrilir. Atalar-analar artıq heç nədən çəkinmədən qızlarını məktəbə göndərirlər. Hökumət xalqın milli ənənələr, vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm rol oynayan muzeylərin, digər maarif və sənət ocaqlarının açılması sahəsində də mühüm tədbirlər həyata keçirir. Bu məktəbi bitirən onlarla azərbaycanlı qız sonradan Azərbaycanın tərəqqisində yaxından iştirak edir, Cümhuriyyət fəallarından olurlar. *Rəhilə Hacıbababəyova, Şəhrəbanu Şabanova, Şəfiqə Əfəndizadə, Səkinə Axundzadə, Məryəm Qembitskaya, Naxçıvanda qızlar məktəbi açan Nazlı Tahirova, Bakıda "Qadın Xeyriyyə Cəmiyyəti"ni yaradan Liza Muxtarova, Züleyxa xanım Vəliyeva, Səltənət* xanım Vəliyeva belə davamçılardandırlar.

Yazılanlara görə əvvəlcə Tağıyevin qızlar məktəbinin yerində Cümə məscidi tikilməli imiş, amma müəyyən səbəblər üzündən bu baş vermir. Beləliklə, məscidin yeri 5 noyabr 1896-cı ildə rəsmi olaraq qızlar məktəbinə verilir.

Binanın layihəsi 1892-1904-cu illərdə Bakının baş memarı olmush İ.V. Qoslavskinin əməyinin məhsulu olur və 1898-1901-ci illərdə tikilir. O zaman belə bir məktəb nəinki Rusiyada, Bakıda, hətta butun İslam aləmində yox imiş. Məhz 5 ildən sonra, 1906-cı ildə Tiflisdə ilk belə müsəlman qızlar üçün məktəb açılır. Tağıyev bu məktəbin tikintisinə 300 min rubldan

çox pul xərcləyir. Sonra isə Tağıyevin qızlar məktəbinin binasında 1918-1920-ci illərdə Azərbaycan Demokratik Cumhuriyyətinin Parlamenti yerləşir.

**Muzeyə ekskursiya:**

Bu gün də adı insanpərvərlik rəmzi kimi çəkilən məşhur Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin başladığı xeyirxah işləri oxuculara çatdırmaq üçün kitabxanada onun tarix muzeyinin nəzdində yerləşən doqquz otaqlı ev muzeyinə ekskursiya təşkil edə bilərik. Bu ekskursiyanı onlayn şəkildə də, təşkiletmək olar. Xatirə muzeyinə daxil olan otaqları, əşyaları, mebelin bərpası ilə məşğul olan Azərbaycan və İtaliya mütəxəssisləri H.Z.A.Tağıyevin ailəvi fotoalbomları əsasında əvvəlki görkəmində yenidən bərpa edə bilmişlər. Oxucuları bu otaqlarla tanış edirik :

1. *H.Z.A.Tağıyevin iş kabineti*
2. *Şərq zalı*
3. *kitabxana*
4. *bilyard otağı*
5. *yemək otağı*
6. *məlumat otağı*
7. *Sona xanım Tağıyevanın bəzək otağı – buduar*
8. *yataq otağı*
9. *Təmizlik otağı*



Xatirə muzeyinin ekspozisiyası H.Z.A.Tağıyevin iş kabinetindən başlayır. Kabinet özünün sadə gözəlliyi ilə seçilir. Onun divarları qırmızı ağacdan düzəldilmiş panellərlə və naxışlı tünd yaşıl divar kağızı ilə bəzədilmişdi. Burada bilavasitə Hacının özünə məxsus kitab şkafı, yazı stolu, kreslo, stul və dolabla yanaşı köhnə ailəvi fotoalbom əsasında hazırlanmış digər əşyalar da vardır. Kitab şkafında Rusiya imperiyasının qanunlar toplusu, məlumat kitabları, ensiklopediyalar saxlanılır. Yazı stolunun arxasındakı divarda Hacının öz şəkil kolleksiyasından İran hökmdarları Nadir şah Əfşar və Fətəli şah Qacarın, solda isə Rusiya imperatoru II Nikolayın və onun xanımı Aleksandra Fyodorovnanın portretləri asılıb. Kabinetin pəncərələri ilə üzbəüz divarda isə rəssam Ayvazovskinin "Dənizdə fırtına" adlı əsəri asılıb. Hacının İran şahı Müzəffərəddinlə görüşünü əks etdirən portret və ev sahibinin yaşadığı günlərdə olduğu kimi əvvəlki yerində asılmışdır. Yazı stolu ilə üzbəüz H.Z.A.Tağıyevin portretini görmək olar. Bakıda texniki orta məktəbin binasının tikilməsində göstərdiyi xidmətlərə, maddi yardıma görə şəhər duması H.Z.A.Tağıyevin portretinin sifariş edilməsi barədə qərar vermişdi. Əsər 1912-ci ildə görkəmli rəssam İ.Brodski tərəfindən çəkilmişdir. Burada H.Z. Tağıyevin təltif edildiyi bütün medal və ordenlər də əks olunub. Onların arasında Rusiyanın "Müqəddəs Stanislav" ordenləri, "Səyinə görə" üç qızıl medal, İranın "Şiri xurşid" ordeni, Buxara Qızıl Ulduzu vardır.

Sarayın iki ən böyük zallarından biri olan, qədim oriyental ornamentlərini özündə birləşdirən Şərq zalı gözəlliyi və möhtəşəmliyi ilə seçilir. Burada qəbullar, rəsmi müşavirələr və təntənəli mərasimlər keçirilirdi. Qapıları qoz, fıstıq, armud ağaclarından hazırlanmış Şərq zalı xüsusi zövqlə bəzədilmişdi. Buraya şəbəkəli stollar, stullar, royal, kreslolar və s. qoyulub. Zalın tavanına Quran ayələri yazılıb. Bu yazı və bəzəklərə 9 kiloqram qızıl işlədilib. Nəhəng çil-çıraq və güzgülərin üzərindəki bralar zalı işıqlandırmaqla bərabər, onun gözəlliyini daha da artırır. Pəncərələrin bədənnüma şüşələrində H.Z.Tağıyevin ərəb hərfləri ilə adı və soyadı yazılmışdır. Zalın müxtəlif hissələrində rast gəlinən və müsəlman memarlığında geniş işlədilən altıgüşəli ulduz Süleyman peyğəmbərin üzüyünün qaşı formasındadır. İnanca görə, o, insanı pis nəzərdən qoruyur.



Zaldakı sütunlu tağlar möhtəşəm Şərq zalına xüsusi gözəllik verir. Sütunlu tağların altından keçərək H.Z.A.Tağıyevin kitabxanasına daxil olunur. H.Z.Tağıyev maarifçiliyin tərəqqisi üçün misilsiz səy və xidmətlər göstərmişdir. Onun vəsaiti hesabına görkəmli yazıçı və şairlərin, tarixçilərin əsərləri çap olunmuşdur. Tağıyev "Kaspi" qəzetini almış və onun sahibi olmuşdur; Quran Azərbaycan dilində ilk dəfə həmin qəzetin nəşriyyatında nəşr edilmişdi. Azərbaycanda "Nəşri-maarif", "Nicat" və b. xeyriyyə cəmiyyətlərinin təsis edilib fəaliyyət göstərməsində Hacı böyük əmək sərf etmişdi.



Kitabxanada ağ rəngli, yumşaq, ipək oturacaqlı mebel dəsti, iki taxta stol, stullar və kreslolar, kitab şkafları yerləşdirilib. Kitab şkaflarında Rusiya imperiyasının qanunlar topluları saxlanılır. Xalça və pərdələr otağa xüsusi yaraşıq verir.

Muzeyin kitabxanasının sağında yerləşən qapı bilyard otağına aparır. Otağın ortasında bilyard stolu qoyulmuşdur. Buradakı arxası hündür gön-dəri divan, kreslolar istirahət üçün nəzərdə tutulmuşdur. Otağı xüsusi quruluşlu çil-çıraq bəzəyir.



Bilyard otağı və kitabxanadan çıxıb yenidən sütunlu tağlar olan guşəyə daxil olmaq olar. Buradan solda yerləşən qapı yemək otağına aparır. Otağın divarlarına məxməri-ipək parça çəkilmişdir. Ortada uzun düzbucaqlı masa və ətrafına oturacağı məxmərdən olan stullar qoyulub. Buxara əmirinin hədiyyəsi olan gümüşdən hazırlanmış üstü minalı qab dəsti burada nümayiş etdirilir. Şkaflarda H.Z.A.Tağıyevin Fransadan gətirdiyi və üzərində özünün venzeli olan xörək dəsti, gümüş bıçaqlar, büllur qədəhlər qoyulub. Otaqda həmçinin qoz ağacından düzəldilmiş, gözəl ornamentli böyük bufet yerləşir.



Bufetdən soldakı qapı monitor olan otağa aparır. H.Z.A.Tağıyevin həyat və fəaliyyəti ilə maraqlananlar burada quraşdırılan panellər və monitordan ətraflı məlumatlar əldə edə bilərlər.

Burada həyat yoldaşı Sona xanımın kiçik qonaq otağı öz gözəlliyi və orijinallığı ilə o birilərindən fərqlənir. Tavan fiqurlu güzgülü lövhəciklərdən quraşdırılmış, divarlar rəngarəng naxışlarla bəzədilmişdir. Otaq bəzən güzgülü

zal da adlandırılır. Mərkəzdə orijinal dəyirmi divan yerləşir. Onun üstündə lampa üçün yer var. Burada həmçinin dördguşəli naxışlı stollar, yumşaq kreslolar və stullar qoyulub. Qonaq otağından yataq. İkinci hissədə isə kiçik və dəyirmi stol, divan, kreslolar, stullar qoyulmuşdur.

Yataq otağına bitişik balaca bir otaq var. Bu, təmizlik otağıdır.

Milli Azərbaycan Tarixi Muzeyinin Azərbaycanın tanınmış neft sahibkarı və xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevin ev-muzeyinin ekspozisiyasına yeni vitrin əlavə olunmuşdur. Vitrində Tağıyevə məxsus olmuş Quran qabı və dini kitablar, H. Z.Tağıyevin təltif nişanları yerləşdirilmişdir. Belə ki, vitrində H.Z. Tağıyevin müxtəlif illərdə təltif olunduğu İranın " Şir-i xurşid " ordeninin 1-ci dərəcəsinin ulduz və nişanı (lentlə), Buxara əmirliyinin "Şərəfli Buxara ulduzu " ordeni, həmçinin Rusiya imperatorluğunun "III Aleksandrın tacqoyma mərasiminə həsr olunmuş medal", "İmperator III Aleksandrın dövründə xidmətlərə görə", "Səylərə görə" medalları nümayiş etdirilir. Quran qabı gümüşdən düzəldilmiş, qızıl suyuna çəkilmiş, mina və qiymətli daşlarla bəzədilmişdir. Belə ki, şərq naxışları fonunda mərkəzi dəyirmi medalyonda mahir zərgərlər 7 iri və 6 kiçik yaqut daşı, 8 zümrüd daşı, ikinci medalyonda isə 8 iri, 6 kiçik yaqut, 6 zümrüd daşı yerləşdirmişlər. Çəkisi 1850 qram olan qabın üzərində ərəb qrafikası ilə " Buxareyi şərif töhfə " ("Buxara hökmdarının hədiyyəsi" yazısı və " 1225 " təqvim ili göstərilib.

Hələ 1935-ci ildə Muzeyə verilmiş əşyaların sənədləri muzey əməkdaşların axtarışları nəticəsində 2012-ci ildə aşkarlanmışdır. Azərbaycan xalqı qarşısında böyük xidmətləri olan H.Z.Tağıyevin həyatı və çoxşaxəli fəaliyyəti ilə bağlı tədqiqat və axtarışlar davam edir. Onun Mərdəkanda qorunub saxlanan bağı haqqında da oxuculara məlumatlar verilir.

## Hacı Zeynalabdin Tağıyevin abidəsi



2019-cu il martın 1-də Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşündə əməkdar artist Bəhram Bağırzadə Hacı Zeynalabdin Tağıyevin Bakıda heykəlinin ucaldılması barədə təklif səsləndirir. Daha sonra Mədəniyyət Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti və Heydər Əliyev Fondu Hacı Zeynalabdin Tağıyevin heykəlinin hazırlanması ilə bağlı açıq heykəltəraşlıq müsabiqəsi elan edir. Tanınmışlarla yanaşı, gənc rəssam-heykəltəraşlar və əcnəbi müəlliflərin də qatıldığı müsabiqəyə təqdim olunan 26 əsərdən Xanlar Əhmədovun işi qalib olur. Hacı Zeynalabdin Tağıyevin heykəlinin hazırlanması ona həvalə edilir. Xanlar Əhmədov 2002-ci ildə Azərbaycan Prezidentinin sərəncamı ilə "Əməkdar rəssam", 2006-cı ildə isə Azərbaycan təsviri incəsənətinin inkişafındakı xidmətlərinə görə "Xalq rəssamı" fəxri adına layiq görülüb. O, dəzgah və monumental heykəltəraşlıq sahəsində çalışır. Bir sıra icra olunmuş monumental layihələrin müəllifidir. Əsərləri Almaniya, Fransa, Polşa, Rusiya, Türkiyə və digər ölkələrdə nümayiş etdirilib, müxtəlif muzey və şəxsi kolleksiyalarda saxlanılır. Yaratdığı əsərlərinin sırasında "İçərişəhər" metrostansiyası yaxınlığında 18 yanvar 2022-ci il tarixindən açılışı olmuş Hacı Zeynalabdin Tağıyevin heykəli də durur. Müəllifin 2022-ci il yanvarın 18-də xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Bakıda ucaldılan abidəsinin açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də, iştirak etmişdir. Prezident İlham Əliyevin

Sərəncamı ilə ucaldılan bu abidə bürüncdən işlənmişdir. Abidənin önündə Heydər Əliyev Fondu tərəfindən Azərbaycan və ingilis dillərində hazırlanan müvafiq məlumat lövhəsidə quraşdırılmışdır. Heydər Əliyev Fondu görmə qabiliyyətini itirmiş şəxslərin cəmiyyətə inteqrasiyasına dəstək məqsədilə bu lövhədə əks olunan məlumatları Brayl əlifbası ilə də təqdim etmişdir. Hesab edirik ki, milli mənəvi dəyərlərə dövlətin və dövlət başçısının daimi diqqət və qayğısının parlaq təzahürü olan bu tarixi sərəncamın böyük mesenat H.Z.Tağıyevin ölkəmizdə neft sənayesinin inkişafında, milli maarifçilik hərəkatının formalaşmasında, Vətənimizdə dünyəvi milli qadın təhsilinin təşəkkülündə, mətbuat və mədəniyyətimizin tərəqqisi yolunda, milli ziyalı elitasının yetişməsində təmənnasız xidmətlərinin çağdaş dövlətçilik təfəkkürü kontekstində yenidən dəyərləndirilməsində, onun çoxcəhətli fəaliyyətinin dərindən tədqiqi, təbliği və müasir gəncliyə gərəyincə və yetərincə çatdırılmasında müstəsna rolu vardır. Bu sərəncam tarixdə iz qoymuş böyük şəxsiyyət olan H.Z.Tağıyev fenomeni haqqında xalqımızın çoxdan arzuladığı tarixi ədalətin təntənəsi baxımından müasir tariximizdə atılmış bir addımdır. Kitabxanada təşkil edilən ekskursyalar oxucular üçün daha maraqlıdır.Tağıyevin yubileyi ərəfəsində içərişəhərdə yerləşən heykəlin ətrafında oxucularla söhbət təşkil etmək olar. Burada kitabxanaçı onlara maarifpərvər milyonçu haqqında məlumat verir. Həyatı, fəaliyyəti, xalqın maariflənməsi yolunda gördüyü işlərdən danışır. Söhbəti aşağdakı suallar ətrafında hazırlamaq olar:

1. Hacı Zeynalabdin Tağıyev kimdir?
2. Onun hansı fəaliyyətləri olub?
3. Uşaq yaşlarında necə çörək pulu qazanıb?
4. Sizin fikrinizcə nə üçün qadınların maariflənməsinə üstünlük verib?
5. Qızların təhsil alması üçün hansı məktəbi açıb?

6. Hacı Zeynalabdin fəaliyyətindən bəhs edən hansı filmə baxmısınız?

7. Onun haqqında yazılmış hansı kitablarla tanışsınız?

8. Yazıçı Əli Əmirlinin "Mesenat " pyesi ilə tanışsınızmı?

9.Əsərin senarisi əsasında hazırlanmış tamaşada Hacının rolunu hansı aktyor canlandırır?

Yubilyarın oxuculara tanıdılması üçün görülən bütün bunlar səbəbsiz deyildi. Çünki bu böyük insan şərəfli ömrünün ən azı 70 ilini yorulmadan Vətənin yüksəlişinə, millət və insanlığın tərəqqisinə, xalqın maarifləndirilməsinə, milli ziyalıların yetişdirilməsinə həsr etmişdi. Milli tariximizin XIX əsrin ikinci yarısı - XX əsrin əvvəllərinin bütöv bir mərhələsini-milli maarifçilik, milli oyanış və dirçəliş dövrünü təmsil edən, halal zəhməti ilə qazandığı sərvətlə bu prosesləri himayə edən H.Z.Tağıyev xalqımızın qan yaddaşında xeyriyyəçilik, mesenatlıq mücəssəməsi kimi özünə əbədi heykəl ucaltmış "millət atası" idi. "Anaları savadsız olan xalq kordur " - deyən Şərq - islam dünyasının ilk mesenatı H.Z.Tağıyev millətin tərəqqisində qadının rolunu düzgün qiymətləndirərək türk-islam aləmində ilk dünyəvi milli qadın təhsili ocağının Azərbaycanda yaradıcısı və banisi kimi də mədəniyyət tariximizə imzasını atmış böyük maarif fədaisi idi. O, insansevərlik simvolu olub, xeyriyyəçiliyi Uca Tanrı qarşısında özünün mənəvi borcu sayırdı. Xalqın maariflənməsinə köməyi özünün həyat idealı hesab edən, "Məktəb təhsili yolu ilə müsəlmanları öz ayrılmaz insan hüquqlarını dərk etdirməyə çalışmaq lazımdır ", deyən bu

böyük mesenat və maarifpərvər ötən əsrin əvvəllərində " Tazə həyat" qəzetində (12.02.1908) çap olunmuş "Mənim təcrübəmdən" adlı məqaləsində belə yazırdı:

*"Xoşbəxtliyimmidir, yoxsa Allahın vergisidir, - deyə bilmərəm. Xalqımın maariflənməsi və tərbiyələnməsi (təhsillənməsi) zəruriyyətini görərək, mən qüvvəm çatan qədər kömək etməkdən çəkinmədim. Bunu isə kiçik uşaqların tərbiyəsi (təhsili) və maarifləndirilməsində, böyüklər üçün isə kitab və qəzetlərin nəşrində gördüm. Bu işə qayğı göstərdim və göstərməkdə davam edəcəyəm. Söylədiklərimə yekun vurarkən, mən həqiqətən də başa düşdüm ki, xalqın gələcək xoşbəxtliyi, dəyanəti və irəliləyişi... tərbiyə - təhsil ilə bağlıdır...".*

Ötən əsrin əvvəllərində H.Z. Tağıyev haqqında kifayət qədər sanballı əsərlər yazılmış, Tağıyev fenomeninin məzmunu və mahiyyəti xalqa çatdırılmışdı. Lakin bolşevik rejiminin Azərbaycana gəlişi, Vətənimizdə 28 Aprel çevrilişi ilə meydana çıxan kommunist ideologiyası digər milli-mənəvi dəyərlər kimi Tağıyev fenomenini də xalqın yaddaşından silmək yolunu tutdu. Sovet dövrü tarixşünaslığında onun adı yasaq edildi, xeyirxah əməlləri başqalarının adına çıxıldı... Sovet rejiminin bütün basqılarına rəğmən, Hacının adını və böyük əməllərini xalqın yaddaşından çıxarmaq mümkün olmadı. Onun haqqında tarixi həqiqətlər əfsanə şəklində xalqın yaddaşına köçdü, Hacı əfsanələşdi və yaşadı...

Azərbaycanın müstəqilliyə qovuşması H.Z.Tağıyev fenomenini yenidən xalqa qaytardı. H.Z.Tağıyev halal zəhmət, alın təri ilə qazandığı sərvətini millət yolunda, onun maariflənməsi, mədəni xalqlar səviyyəsinə yüksəlməsi yolunda sərf etməkdən çəkinməmiş, nəticədə "sərvət və səxavətdə məşhur Hacı" kimi xalqın yaddaşında və tarixində əbədiləşmişdir. 1924-cü il sentyabrın 1-də Bakının Mərdəkan kəndində əbədiyyətə qovuşana kimi keşməkeşli, uzun, lakin mənalı və şərəfli ömür

yaşayan H.Z.Tağıyev son mənzilində də həmişə özünə müəllim, ruhani ata saydığı Axund Əbu Turabın ayaqları altında uyumağı hər şeydən uca tutdu. Bununla da insana bilik verənin, savad öyrədənin hamıdan uca məqamda dayandığını, “Mənə bir hərf öyrədənin qulu olaram” fikrini bir daha təsdiqləmişdi... Heç bir savadı olmayan bu böyük insanın elmə, maarifə, mədəniyyətə bu qədər önəm verməsinin səbəblərini, əsas qaynaqlarını düşünəndə, Hacının təbiətində milli təəssübkeşlik, milli qeyrət və vətənpərvərlik hissinin çox güclü olması dayanır. O, savadsız olsa da, millətinin balalarının təhsilli olması arzusu ilə alışıb-yanırdı. İnkişaf etmiş mədəni xalqlar arasında öz millətinin də imzasını görmək istəyi onda çox güclü idi... Bir dəfə rus çarı III Aleksandrın tacqoyma mərasimində iştirak edən Hacını imperatora təqdim edən senator demişdi: “Vaşe veliçestvo, eto predstavitel dikoqo naroda ” (“Zati-aliləri, bu vəhşi xalqın nümayəndəsidir”). Bundan əsəbiləşən Hacı senatora etiraz etmişdi: - Mı ne dikie, moy narod ne dikiy, on imeet boqatuyu, mnoqovekovuyu svoi istoriyu” (“Biz vəhşi deyilik, mənim xalqım vəhşi deyil, onun çoxəsrlik zəngin tarixi vardır”).. Ömrü boyu bu təhqiramiz adın xalqın üstündən götürülməsinə çalışan və bütün sərvətini bu yolda xərcləməkdən çəkinməyən H.Z.Tağıyevin oğlu Məhəmmədtağı çar Rusiyası tərəfindən azərbaycanlılardan təşkil olunmuş “Dikaya diviziya”da zabit olmuş, 1918-ci ilin martında ehtiyatsızlıq üzündən açılan güllədən dünyasını dəyişmişdi... Hesab edirik ki, Hacının maarifçi-mesenat kimi yetişməsində bu amilin böyük təsiri olmuşdu. İkincisi, Hacının Bakının Təzəpir Məscidi yaxınlığındakı malikanəsinin qonşuluğunda yaşayan böyük Azərbaycan maarifçisi Həsən bəy Zərdabi ilə tanışlığı, bu tanışlığın əbədi dostluğa, məsləkdaşlığa çevrilməsi faktı da bu böyük mesenatın maarifçilik dünyagörüşünün formalaşmasına böyük təsiri olmamış deyildi... Təsadüfi deyil ki, Tağıyevin Qız

Məktəbi kimi milli məktəb tarixinə şanlı səhifələr yazmış təhsil ocağının təsis olunması ilə bağlı yazışmalar, eləcə də məktəbin Nizamnaməsi məhz Həsən bəy Zərdabi tərəfindən hazırlanmış, həmin məktəbin ilk müdiri də Həsən bəyin ömür-gün yoldaşı Hənifə xanım Məlikova - Abayeva olmuşdu. Nəhayət, Hacı həyatı boyu savadsızlığın ağrı-acısını dadmışdı. Ona görə də millət balalarının savadlanmasını, inkişafdan geri qalmamasını cani-dildən istəmişdi... Böyük ictimai-siyasi xadim Nəriman Nərimanov "Hacı Zeynalabdin Tağıyevin əlli illik məişəti və camaata xidmətləri" (Bakı, 1900) adlı kitabında bu böyük maarifpərvərin 1901-ci il sentyabrın 20-də keçiriləcək və xalqa xidmətlərinin 50 illiyi ilə bağlı xeyirxah işlərindən söz açarkən yazırdı ki, qeyrətli Hacı millət işlərinə, elm, maarif, mədəniyyət işlərinə indiyədək 1 milyon rubladək xərc qoyubdur. Həmin mənbədə deyilirdi ki, Hacı 1900-cu ildə "dörd məktəbə nazir (fəxri qəyyum)" idi. Böyük sənaye təşkilatçısı olan H.Z.Tağıyev Azərbaycanda sənaye, kənd təsərrüfatı və ticarətin inkişafına xüsusi əhəmiyyət verirdi. Bu sahələr üzrə mütəxəssis hazırlamaq məqsədilə hələ XIX əsrin 90-cı illərində "Kaspi" qəzetində elan vermişdi ki, 1888-ci ildən fəaliyyət göstərən Bakı Texniki Sənət Məktəbinin orta texniki məktəbə çevrilməsi üçün tələb olunan bütün xərcləri ödəməyə hazırdır... Hacı Zaqafqaziyada yeganə olan, 1896-cı ildən Bakı Orta Texniki Məktəbinə çevrilən həmin təhsil müəssisəsinin fəxri himayəçisi idi. Məktəbin tikintisinə (Hazırkı Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin köhnə binası) külli miqdarda vəsait xərcləmiş, öz hesabına kimya laboratoriyası açdırmışdı ki, həmin laboratoriya "Həqiqi Mülki Müşavir Tağıyevin laboratoriyası" kimi tarixə düşmüşdü. Hələ 1895-ci ildə fəaliyyətə başlamış Mərdəkandakı bağçılıq məktəbi də Hacı tərəfindən təsis edilmiş ilk internat tipli təhsil müəssisəsi idi. Məktəbin bütün xərcləri Hacı tərəfindən ödənilirdi. Bakı Dumasının qlasnısı (deputatı) kimi eyni

zamanda, Bakıda kommersiya məktəbinin də açılmasını tələb edirdi. Nəhayət, 1900-cu ildə H.Z.Tağıyev Bakıda Kommersiya Məktəbinin binası üçün yer aldı, müsabiqə ilə binanın layihəsi təsdiq edildi, bina tikildi (Hazırkı Azərbaycan Dövlət Pedaqoji Universitetinin köhnə binası) və məktəb açıldı. Hacı bu tikintiyə 50 min rubl pul xərclədi və həmin məktəbin fəxri himayəçisi (qəyyumu) oldu. Yeri gəlmişkən deyək ki, 1907-ci ildə H.Z.Tağıyev mesenatlıq, xeyriyyəçilik xidmətlərinə görə sonuncu rus çarı II Nikolayın 25 yanvar 1907-ci il tarixli Fərmanı ilə Həqiqi Mülki Müşavir rütbəsinə layiq görülmüşdü. Bu rütbə kontr-admiral, general və ober-prokuror rütbələrinə bərabər tutulurdu və böyük imtiyazları vardı. Bu münasibətlə "General Tağıyev" marşı da bəstələnmişdi... Bakı şəhər Duması Bakı Orta Texniki Məktəbin tikintisi və abadlaşdırılmasında xüsusi xidmətlərinə və məktəbin fəxri qəyyumu olduğuna görə Hacının Həqiqi Mülki Müşavirin rəsmi geyim formasında portretini çəkmək və məktəbin akt zalında yerləşdirmək üçün qərar qəbul etmişdi. Bu məqsədlə tanınmış rus rəssamı İosif Brodski Peterburqdan Bakıya dəvət olunmuşdu. 1912-ci ildə həmin portret hazırlanmış və məktəbin iclas zalına qoyulmuşdu. Portretin sifarişçisi şəhər Duması olsa da, rəssamın qonorarı (10 min rubl) Hacı tərəfindən ödənilmişdi. Hazırda Milli Azərbaycan Tarixi Muzeyində saxlanan həmin portret sovet dönəmində muzeyin zirzəmisinə atılmış, sonralar rəssam Fərhad Hacıyev tərəfindən bərpa edilmişdir. Hacı eyni zamanda Bakıda fəaliyyət göstərən rus qadın məktəblərindən sayılan Mariya Qadın Gimnaziyasının binasının (indiki Azərbaycan Milli İncəsənət Muzeyi) tikilməsinə çoxlu vəsait xərcləmiş, həmin məktəbin fəxri qəyyumlarından biri olmuş, eləcə də " Müqəddəs Nina " Qadın Məktəbinə də (indiki 132-134 №-li Təhsil Kompleksinin binası) müntəzəm olaraq yardımlar etmişdi. H.Z.Tağıyevin maarifçilik, mesenatlıq fəaliyyətinin zirvəsi

müasirlərinin dediyi kimi, “ bizim diyarda, hətta imperiyada birinci ” olan Bakıda rus-müsəlman Qadın Məktəbinin açılması sayılmalıdır. Bu təhsil ocağı Azərbaycanın təhsil tarixinə “ Tağıyevin Qız Məktəbi ” kimi daxil olub. Bu məktəbin açılması uğrunda Hacı uzun illər mübarizə aparmış, bir neçə dəfə rədd cavabı alsa da, ruhdan düşməmişdi. Nəhayət, 1896-cı ildə II Nikolayın tacqoyma mərasimində Hacı çarın arvadı Aleksandra Fyodorovnaya Bakıda açılacaq rus-müsəlman qadın məktəbinə onun adının veriləcəyini bildirərək imperatordan icazə alınmasına köməklik göstərilməsini xahiş etmişdi. Beləliklə, böyük istək yerinə yetirilmişdi. Məktəbin binasının tikintisinə 1898-ci ildən başlanılmış, 1901-ci ildə başa çatdırılmışdı. Böyük hazırlıqlardan sonra 1901-ci il oktyabrın 7-də keçmiş Nikolayevski (Hazırkı İstiqlaliyyət küçəsi, Azərb. MEA Əlyazmalar İnstitutunun binası) küçəsində yerləşən, rəsmi adı “Bakı İmperatriça Aleksandra Fyodorovna adına Rus-Müsəlman Qadın Məktəbi ” olsa da, xalqın yaddaşında “ Tağıyevin Qız Məktəbi ” kimi əbədiləşən təhsil müəssisəsinin təntənəli açılışı oldu. Bu tarixi binada ikinci belə təntənəli tədbir 7 dekabr 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin açılışında olmuşdu. Böyük maarifçi, “Tərcüman” qəzetinin redaktoru İsmayıl bəy Qaspıralı 1901-ci ilin 7 oktyabr gününü “Rusiya müsəlmanlarının yaddaşında böyük gün” adlandırmışdı.

Himayəçisi və naşiri H.Z.Tağıyev olan “Kaspi” qəzeti bu tarixi hadisəni belə qiymətləndirirdi: “7 Oktyabr günü Zaqafqaziyanın müsəlman əhalisinin ən mütərəqqi təbəqəsinin çoxdan arzuladığı qadın təhsili ideyasının nəhayət ki, gerçəkləşdiyi gün kimi yadda qalacaq və təkcə Zaqafqaziya üçün deyil, Rusiyanın qadın təhsili məsələsinin çoxdan həyati əhəmiyyət kəsb etdiyi müsəlmanlar yaşayan bütün bölgələrinin əhalisi üçün tarixi hadisədir...” Həqiqətən, bu məktəbin açılışı

türk-islam dünyasında böyük sevinclə qarşılandı. Bununla da, Azərbaycanın təhsil tarixində yeni bir şanlı səhifənin-milli dünyəvi qadın təhsilinin təməli qoyuldu. Bu tarixi hadisənin müəllifi böyük mesenat H.Z.Tağıyev oldu.

***" Sərvəti və səxavətilə məşhur insan "***

## Ədəbi-bədii gecə

Kitabxanada H.Z.Tağıyevin anadan olmasının 200 illlik yubileyi münasibəti ilə hazırlanmış ədəbi - bədii gecənin ssenarisini təqdim edirik: Səhnə qurulur. H.Z.Tağıyevin portreti, haqqında deyilmiş fikirlər yerləşdirilir. Zalda messenat haqqında yazılmış kitablardan sərgi təşkil edilir. Sərgidə həmçinin dövri mətbuat yazılarından, ailə şəkillərindən, CD məlumatlardan da istifadə edilir.

**I aparıcı**: Əziz iştirakçılar, hörmətli qonaqlar, bura bütün varlığı ilə tərəqqipərvər və maarifpərvər bir insanı anmaq üçün yığışmışıq. Bu şəxs Hacı Zeynalabdin Tağıyevdir.

**II aparıcı:** Tağıyev yanvarın 25-i Bakıda İçərişəhərdə anadan olmuşdur. Hələ uşaqkən ailəsinin əziyyətlə dolanışığını görən Hacı, kiçik yaşlarından bənnalıqla zəhmətə alışaraq ağlı və çevikliyi sayəsində zəmanəsinin ən varlı adamına çevrilmişdir.
**I aparıcı:** Onun ən böyük varı millətini inkişaf etdirməyə nail olmaq olmuşdur. Bunun üçün xalqı milləti yolunda hər cür malından sərvətindən istifadə etmişdir.
**II aparıcı:** O, Azərbaycan iqtisadiyyatının birtərəfli inkişafına qarşı çıxaraq yüngül sənaye müəsisələrinin işə salınmasına, bank, ticarət sektorunun inkişafına böyük səy göstərmişdir.
Bir sahibkar kimi onun fəaliyyəti bu gün iqtisadiyyatımızı sahbkarlığı inkişaf etdirənlər üçün əsl nümunə sayılır.

**I aparıcı:** Üstündən 200 ilə qədər vaxt keçsədə, Azərbaycan xalqının tarixində bu ölməz şəxsiyyətə bərabər ikinci xeyriyyəçi yoxdur, hansı ki, varidatının yarısını xalqın maariflənməsinə sərf etmişdir. O bilirdi ki, xalqın təhsilini inkişaf etdirmədən, maariflənmə işini köklü sürətdə yaxşılaşdırmadan milli dirçəlişə nail olmaq olmaz. Bu məqsədlə o, ilk ağır və yüngül sənaye müəssisələrinin, Bakıya kənardan çəkilmiş ilk möhtəşəm şollar su kəmərinin, ilk gəmi tərsanəsinin və Xəzər gəmiçiliyinin inkişafı ilə yanaşı öz dövründə 25-ə yaxın qəzet və jurnalın nəşrinə himayədarlıq etmiş, ölkəmizdə ilk qız məktəbinin açılmasına nail olmuşdur.
**Aparıcı:** 7 oktyabr 1901-ci ildə açılan qız məktəbinin açılışı münasibəti ilə Peterburqdan, Tiflisdən, Zaqafqaziyadan, Bağçasaraydan, Bakı quberniyasının baş keşişi və s. kimi yerlərin maarifpərvərlərdən Hacı Zeynalabdin Tağıyevə təbriklər gəlmişdir.
**II aparıcı:** Qarabağdan Mirzə Əli Əsğər Növrəs isə qız məktəbinin açılışı münasibətilə Hacını bu şerlə təbrik etmişdir:

Tapdı rövnəq binayi-niknam,
Salı, min doqquz yüz bir ildə tamam.
Sali-islamı eyləmək izhar,
Əbcəd ilə deyil mənə düşvar.
Bəli tarixə misra inşadır,
Təqiyof uşqolu mühəyyadır.

**Aparıcı:** Gəlin Teyub Qurbanin “ Yaşayan ömür ” əsərində Tağıyevin qız məktəbinin açılması qərarına necə gəlməsi səhnəsinə məktəblilərin ifasında tamaşa edək:

( *Səhnə qurulur, Hacının bağı, Nəriman Nərimanov, Həsən bəy Zərdabi söhbət edir. Rolları ifa etmək üçün məktəblilər gəlir)*

***Hacı:*** Millətin ümidi ziyalılardır
Mənim də sizlərə hörmətim vardır.
Gəlin məsləhətlə bir fikrə gələk:
Müsəlman uşağı oxusun gərək.
Demirəm bağlansın mollaxanalar,
Təzə məktəbləri etməyək inkar.

***Nəriman*:** Hacı, dünyalarca razıyıq sizdən,
Yenə xəbər verdin ürəyimizdən.
Bunu yaxşı bilir ki, məsləkdaşlar,
Xalqın nicat yolu məktəbdən başlar.
Yoxdur dövrə dair məktəblərimiz,
Mollanın evində dərskeçirik biz.
Həm də bu mollalar, mollabacılar
Tifili çubuqlar, söylər acılar.
İstəsə uşağı nökəri edər,
Şagird su daşıyar, dükana gedər!

**Həsən b. Zərdabi -** Ay, gün tutulanda qazan çalırıq
Göydə ulduzları nişan alırıq
Cadudan, həmzətdan, cindən qorxuruq,
Kitab açdırırıq , fala baxırıq.
Yenə qoç döyüşü, xoruz döyüşü
Olub çoxlarının əyləncə işi.
Mərsiyə deməklə, sinə vurmaqla
Şəbeh göstərməklə, oyun qurmaqla,
Vaxtını ötürür nəsillərimiz,
Avamlıq, mövhumat əsiriyik biz

**Hacı:** Məktəb ana dili öyrətsə əgər,
Uşaq ana kimi məktəbi sevər.
Ərəbcə, firəngcə bilmək yaxşıdır,
Fəqət, ana dili ömrün naxşıdır.

**Nəriman:** Dini bayraq edib, kor bayraq qalmaq olar,
Dini bayraq edib, ucalmaq olar.

**Zərdabi:** Gərəkdir müəllim müqəddəs olsun.
Xalqın ürəyində ülvi səs olsun.
**Hacı:** Millət ziyalısız qaranlıq gecə,
Günəşli sabaha adlayar necə?
**Həsən bəy:** Elm silah olsa əlində sənin,
Cəhalət neyləyər elində sənin

**Hacı:** Elmin açarıdır üsuli-cədid,
Onun banisidir fəxrimiz Seyid
Quran, təqvid, imla.., hesab dərsləri,
Tarix, coğrafiya, bunlar hər biri
Quran, təğvid, imla... bunlar hər biri-
Bizim uşaqlara keçilsin gərək,
Belə məktəbləri genişləndirək.

**Həsən b. Zərdabi:** Demək qızlarada açırsan məktəb
*(Hacı fikrə gedir)*
**Nəriman:** Bu qədər vəsait, bu qədər bina...
Duruş gətirərsən Hacı sən buna?
**Hacı:** Pulu xərcləməsəm, olmaram aram.
Canıma dərd düşər tez qocalaram.
**Zərdabi:** Hacı, yorduq səni, izn ver gedək,
**Hacı:** Gəliniz, gediniz öz eviniz tək.
*( Görüşüb gedirlər. Hacı tək qalır.)*

**Hacı:** Xalqın çiyinləri dağlar qaldırar,
Çünki bu dağların etibarı var.
Dağlara bənzəyir ziyalılar da,
Fəqət bu dağları saxlayan harda?
Ehtiyac içinə yaşayır onlar,
Millətin yolunda fəda olanlar.
Köçdü Seyid Əzim vaxtsız dünyadan,
Şairin kəlamı çıxarmı yaddan?!

(Həzin bir musiqi)

**Hacı:** (tək fikirli)
Həsən bəy dediyi qızlar məktəbi...
Necə bəyan edək biz bu mətləbi?
Aha... lap duma da nə edə bilər,
Çar özü razılıq verərsə əgər...
Qızların ürəyi zərif, kövrəkdir,
Qız ilə gül kimi rəftar gərəkdir.
Qızın getdiyi yer bir toydur, bir yas.
Qalan vaxtlarında bayıra çıxmaz.
Yetər cəhalətin köləsi olmaq,
Avropalılardan geridə qalmaq,
Bizim qızlardadır abır-həya da.
Yoxdur bərabəri bütün dünyada,
Ceyran qızlarımızazad yaransın,
Odlar diyarına qanad yaransın.
Balaca Saram da onlar içində,
Yanır ata qəlbim qızım üçündə
Məhsəti, Nüşabə, Natəvan, Həcər,
Millətin başını uca ediblər
Rəzalət bağlayıb idrak yolunu,

Kişilər oynayır qadın rolunu.
Məktəb bitirsinlər.təhsil alsınlar,
Müəllim olsunlar, təbib olsunlar.
Balaca Saram da onlar içində,
Yanır ata qəlbim qızım üçün də...

**I aparıcı:** 1901-ci ildə Bakıda qız məktəbinin açılması üçün 5 milyon qızıl pul sərmayə qoyan Hacı Zeynalabdin, 1919-cü ildə Azərbaycan Dövlət Darlüfünunun (BDU) açılmasında da dövlətə maddi yardımını əsirgəmir. Bu barədə o fikirlərini
"Tazə həyat" qəzetinin 1908-ci il 12 noyabr sayında belə açıqlayırdı:
**I aparıcı:** Kasıb olduqlarından ata-anam mənə sevgi, məhəbbət, nəvazişdən başqa heç nə verə bilməyiblər, məndə olan bütün yaxşı cəhətlər üçün onlara-məhəbbət və nəvazişlərinə borcluyam. Şübhəsiz bu da Allah - taalanın iradəsi ilə olub. Bütün işlərimlə yanaşı, fikrim-zikrim xalqımı xoşbəxtliyə çatdırmaqdır. Buna görə gecə-gündüz əlləşirəm. Məqsədə çatmaq üçün çoxlu məktəb açmaq lazımdır. Çoxlu kitab, məcmuə və qəzet çap etdirib, hər yerə - uzaq kəndlərə göndərilməlidir.
**Aparıcı:** Ona görədə məşhur Bakı milyonçusu, sənayeçisi, sahibkarı və nəhayət xeyriyyəçisi Hacı Zeynalbdin Tağıyevin adı xalqımız tərəfindən bu gün də insanpərvərlik rəmzi kimi çəkilir, xatirəsi ehtiramla yad edilir. Çünki o həyatını şam kimi əridərək xalqının maariflənməsi yolunu nura qərq etmişdir.
**Aparıcı:** Onun zəkası iki qayə üzrə çalışmışdır:
I zəngin olmaq, II milli qayəmizə xidmət etmək, milli inkişafımızı və yüksəlişimizi dəstəkləmək.
**Aparıcı:** O, XX yüzilin elə parlaq bir şəxsiyyətidir ki, onun fəaliyyətinin, Azərbaycan üçün elədiklərinin üstündən nə qədər

xətt çəkilsə də onun tikdirdiyi abidələrdə adı hələ yüzillər boyu yaşayacaqdır.
**Aparıcı:** H.Z.Tağıyev özünün əməlləri, müdrikliyi, xalqının gələcəyinə qayğısı, heyranedici səxavəti, alicənablığı, zamanla ayaqlaşmaq bacarığı ilə nəsillərin yaddaşından heç vaxt silinməyəcək. Onun çoxşaxəli sahibkarlıq, ictimai-siyasi fəaliyyəti Azərbaycanın iqtisadi və mədəni inkişafında böyük rol oynayıb.

*( Sonda böyük mütəfəkkirin həyat və fəaliyyətindən bəhs “Yük” filmi nümayiş edilir. Film 1995-ci ildə çəkilmişdir.)*

**Ədəbiyyat siyahısı:**

Haqqında

**Kitablarda**

Əhməd D. Azərbaycanın ilk qadın müəllimləri : Nabat Nərimanova, Səkinə Axundzadə, Şəhrəbanı Şabanova və s. // Fərqlilər. - Bakı : TeasPress, 2015. - S. 99-103.

Hacı Zeynalabdin Tağıyev: öz dövrünün aynasında / elmi red. N. Gözəlova. - Bakı : Pergament, 2020. - 216 s.

İlkin Q. Hacı Zeynalabdin Tağıyev // Bakı və bakılılar. - B. : Nurlar, 2006. - S. 234-243.

Mahmudov C. Hacı Zeynalabdin Tağıyev // Bakı nefti, neft milyonçuları və Nobel qardaşalrı. - B. : Nurlan, 2006. - II fəsil: Bakının neft milyonçuları, onların sahibkarlıq fəaliyyəti, ailə həyatı və taleləri. - S. 90-116.

Qurban T. Səsimə hay verən var... : Hacı Zeynalabdin Tağıyevin qızı Sara xanım haqqında // Ömür yolları. - B. : OL, 2013. - S. 70-84.

Qurban T. Hər oxuyan Molla Pənah olmaz, hər varlanan Hacı Zeynalabdin // Ömür yolları. - B. : OL, 2013. - S. 101-106.

Süleymanov M. Hacı Zeynalabdin Tağıyev // Eşitdiklərim. Oxuduqlarım. Gördüklərim. - B. : Xəzər, 2009. - S. 131-146.

**Həsr olunmuş bədii əsərlər**

Qurban T. Sara : poema. - Bakı : Şirvannəşr, 2002. - 110 s.

Qurban T. Yaşayan ömür : poema // Məcra. – B.: Şirvannəşr, 2004. – S.3-86.

Bayram T. Hacı Zeynalabdin Tağıyevin abidəsi qarşısında : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 154.

Əmirli Ə. Mesenant : dram // 15 pyes. – Bakı : Öndər, 2006. – S. 471. 506 ; Hasarın o üzü. – Bakı : 2010. – S.5-64.

Xələfli Ə. Ötəri küləyin səsi : Hacı Zeynalabdin Tağıyevə // Həsrət körpüsü. - Bakı : Azərbaycan, 2003. - S. 110-111.

Xəzri N. Hacı Zeynalabdin çilçırağı : şeir // Seçilmiş əsərləri. 2 cilddə. - Bakı : Lider, 2004. – C.1. - S. 115.

Dövri mətbuatda

Abbaslı T. Milli milyonçumuz : Єəxsi evlər inşa edən ustadan xalqın evini tikən ustada, sər-səxavətilə Həcci daha da şərafətləndirən HACIya çevrilmiş Zeynalabdin Tağıyev...// Mədəniyyət. - 2019. - 25 yanvar. - № 7. - S. 6.

Ağayev R. Azərbaycanda xeyriyyəçilik hərəkatı və Həsən bəy Zərdabi : Azərbaycanda Həsən bəy Zərdabinin başçılığı ilə fəaliyyət göstərən xeyriyyəçilik cəmiyyəti // Kaspi. - 2011. - 11 mart. - № 45. - S. 12.

Azadi S. Humanizm və xeyirxahlıq missiyası // İki sahil. - 2022. - 20 yanvar. - № 11. - S. 3

Babaşlı M. Nəşri-maarif cəmiyyətinin Azərbaycan maarifçilik tarixində yeri // Füyuzat. - 2015. - № 5. - S. 36-40.

Bayramoğlu A. Tariximizin iki məşhur siması : təsadüfi deyil ki, Hacı Zeynalabdin Tağıyevin maliyyə dəstəyi ilə ali təhsil alan onlarla gəncdən biri Nəriman Nərimanov idi // Kaspi. - 2016. - 8-10 oktyabr. - № 160. - S. 7.

Bayramova Z. XIX əsrdə xeyriyyəçilik ənənələrini məhz Zeynalabdin Tağıyev qoymuşdur // Səs. - 2022. - 20 yanvar. - № 11. - S. 10.

Bayramova Z. Hacı Zeynalabdin Tağıyevin abidəsi ucaldılacaq // Səs. - 2020. - 13 mart. - № 49. - S. 11.

Bəhramov C. Azərbaycan milli kapitalının görkəmli nümayəndələri // İki sahil. - 2019. - 13 mart. - № 49. - S. 13. ; 16 mart. - № 51. - S. 21. ; 19 mart. - № 52. - S. 21. ; 28 mart. - № 54. - S. 13.

Böyük xeyriyyəçimiz haqqında film beynəlxalq festivalda / Azərtac // 525-ci qəzet. - 2022. - 25 fevral. - № 36. - S. 9.

Dünyamin qızı Q. Böyük xeyriyyəçinin bəxtsiz övladları : Hacı Zeynalabdin Tağıyevin qızlarının qəribə taleyi olub // Kaspi. - 2016. - 29 iyul. - № 129. - S. 7.

Dünyamin qızı Q. Millət atası, yoxsa istismarçı kapitalist? : Hacı Zeynalabdin Tagıyev varidatını xalqının maarifi, mədəniyyəti, xoşbəxtliyi yolunda sərf etsə də, sovetlər onu tam başqa cür qələmə verirdi // Kaspi. - 2016. - 4 oktyabr. - № 156. - S. 15.

Dünyaminqızı Q. Avropaya təhsilə göndərilən 99 gənc : onlardan intihar edənlər, həbsə düşənlər və ömrünü qürbətdə başa vuranlar da oldu // Kaspi. - 2015. - 28-30 noyabr. - № 199. - S. 6.

Əhmədov T. Baş redaktordan : [Birinci Cahan müharibəsi dövründə Azərbaycan-Türkiyə münasibətləri haqqında] // Füyuzat. - 2012. - № 3. - S. 2-5.

Əhmədov T. Böyük Zirə : Nargin cəzirəsi // Füyuzat. - 2012. - № 3. - S. 6-12 ; № 4. - S. 46-54.

Əhmədova F. Hacı Zeynalabdin Tağıyev // Füyuzat. - 2018. - № 5. - S. 46-53.

Əliyev Z. Bir portretin tarixi : Hacı Zeynalabdin Tağıyevin naturadan çəkilmiş portreti haqqında // Ədəbiyyat qəzeti. - 2016. - № 25.

Fərəcov S. ...Qırağına bax, bezini al! : Hacı Zeynalabdin Tağıyevin iş fəliyyəti haqqında // Mədəniyyət. - 2009. - 16 oktyabr. - № 75. - S. 14.

Fərəcov S. Milyonçu və zəngin mənəviyyat sahibi : Hacı Zeynalabdin Tağıyevi xatirə muzeyindən təəssürat // Mədəniyyət. - 2018. - 24 yanvar. - № 6. - S. 10.

Fərəcov S. Ziyalı və milyonçunun əqidə birliyi : Hacı Zeynalabdin Tağıyev haqqında / S. Fərəcov // Mədəniyyət. - 2014. - 10 oktyabr. - № 77. - S. 13.

Fərəcova Z. Soyadını şöhrətləndirən Zeynalabdin // Azərbaycan : qəzet. - 2020. - 22 avqust. - № 166. - S. 7.

Fərzəliyev Y. Azərbaycan xalqı qarşısında böyük xidmətləri olan insan : Hacı Zeynalabdin Tağıyev haqqında / Y. Fərzəliyev // Azərbaycan Müəllimi. - 2015. - 12 dekabr. - № 46. - S. 11.

Gəncəli S. "Füyuzat"ın yüzüncü sayı : "Füyuzat" - 10 il // Füyuzat. - 2018. - № 5. - S. 8-13.

Gülər. "İkinci həyat" : Hacı Zeynalabdin Tağıyevə həsr olunmuş kitab təqdimatı olundu // Mədəniyyət. - 2011. - 2 fevral. - № 8. - S. 5.

H. Z. Tağıyev : Neft sənayesinin təxirəsalınmaz ehtiyacları (Rusiya Sənayesi və Ticarətinə Yardım Cəmiyyəti Bakı bölməsində çıxış) / tərc. A. Əhmədgil // Xalq qəzeti. - 2017. - 6 avqust. - № 169. - S. 4.

Hacı Zeynalabdin // Azərbaycan : qəzet. - 2018. - 7 iyun. - № 127. - S. 11.

Hacı Zeynalabdin Tağıyevin abidəsinin ucaldılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (11 mart 2020-ci il) // Respublika. - 2020. - 12 mart. - № 55. - S. 3 ; Azərbaycan. - 2020. - 12 mart. - № 55. - S. 1.

Hacı Zeynalabdin Tağıyevin abidəsi açıldı // 525-ci qəzet. - 2022. - 19 yanvar. - № 10. - S. 3.

Hüseynzadə R. Hacı Zeynalabdin Tağıyevin türk sultanına hədiyyəsi // Füyuzat. - 2019. - № 3. - S. 38-42.

İxtiyarqız, N. Muzeylərdə qalan tarix : Hacı Zeynalabdinin muzeyə çevrilmiş malikanəsində 300 minədək maddi-mədəniyyət nümunəsi saxlanılır // Həftə içi. - 2012. - 13-15 oktyabr. - № 034. - S. 11.

Qasımova A. Bakıda ilk dünyəvi qız məktəbi // İşıq. - 2012. - № 2. - S. 6-9.

Quliyev Ə. Hacı Zeynalabdin Tağıyevin unudulmaz obrazı... : sənətdə və məşhur rus rəssamın xatirlərində // 525-ci qəzet. - 2022. - 28 yanvar. - № 16. - S. 13.

Quliyev Ə. Tarixi ədalətin təntənəsi : və ya Hacı Zeynalabdin Tağıyevin fenomenal maarifçilik fəaliyyəti // Azərbaycan Müəllimi. - 2020. - 12 iyun. - № 16. - S. 1, 5 ; 19 iyun. - № 17. - S. 1, 9.

Qurbanov A. Amalım millətimi səadətə qovuşdurmaqdıq : Hacı Zeynalabdin Tağıyev haqqında // Füyuzat. - 2009. - №1 (45). - S. 10-13.

Qurbanov A. Tarixi qardaşlıq köməyi // Füyuzat. - 2020. - № 3(113). - S. 38-46.

Qurbanova N. Tarixin izi, milyonçunun özünün yaşadığı məkan // Həftə içi. - 2017. - 8 iyun. - № 102. - S. 4.

Qurbanqızı Z. O, xeyirxah işlər, xoş əməllər üçün doğulmuşdu // Respublika. - 2022. - 9 yanvar. - № 4. - S. 4.

Qurbanqızı Z. Ölkəmizdə xeyriyyəçilik sahəsində formalaşmış tarixi ənənə davam etdirilir. : sosial model konsepsiyasının hazırlanması gündəmdədir // Respublika. - 2022. - 6 fevral. - № 27. - S. 4.

Manafova S. Azərbaycanda müasir təhsilin təməlini qoyanlar // Psixoloq. - 2012. - 25 iyul. - № 7. - S. 6.

Məmmədli C. Mesenatlıq məktəbi: tarixdən bu günümüzə // Kaspi. - 2016. - 8-10 oktyabr. - № 160. - S. 7.

Mərdanov M. Böyük Azərbaycan mesenatı və maarifçisi : Hacı Zeynalabdin Tağıyev haqqında // El. - 2010. - № May. - S. 14-26.

Məşhur mesenat doğma Bakıya qayıdır : məşhur mesenat Hacı Zeynalabdin Tağıyevin "İçərişəhər" metrostansiyası qarşısında heykəli ucalacaq // Palitra. - 2020. - 4 mart. - № 24. - S. 13.

Milyonçu, maarifçi... // Savalan. - 2018. - 25-31 dekabr. - № 57. - S. 3.

Muradov C. Hacının səxavəti / C. Muradov // 525-ci qəzet. - 2019. - 15 noyabr. - № 151. - S. 11.

Müşfiq Ş. Tağıyevin zehnimizdəki və Bakıdakı heykəli // 525-ci qəzet. - 2022. - 20 yanvar. - № 11. - S. 16.

Nərimanoğlu M. Xeyriyyəçilik unudulmur : Hacı Zeynalabdin Tağıyev də bu fəaliyyəti ilə yaddaşlarda qalmışdır // Azərbaycan : qəzet. - 2022. - 23 yanvar. - № 15. - S. 4.

Nərimanoğlu M. Müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbi Bakıda açılıb // Azərbaycan : qəzet. - 2019. - 22 sentyabr. - № 209. - S. 6.

Nəsrəddinov N. Tağıyevin unudulmuş 110 yaşlı ibtidai məktəbi // Kaspi. - 2014. - 23 aprel. - № 68. - S. 10.

Niyaz qızı A. Xeyirxahlıq simvolu : Hacı Zeynalabdin Tağıyev öz əməlləri ilə xalqın əbədi rəğbət və hörmətini qazanmışdı // Kaspi. - 2016. - 26 yanvar. - № 14. - S. 13.

Paşayeva, Q. Abidəsi könüllərdə və könlümüzün paytaxtı Bakıda ucalan mesenat // Xalq qəzeti. - 2022. - 28 yanvar. - № 19. - S. 6.

Rəcəbova M. Xeyriyyəçilik - Xalqın və dövlətin maraqlarına təmənnasız xidmətdir // Respublika. - 2022. - 26 yanvar. - № 17. - S. 7.

Rəhimzadə M. Azərbaycanın böyük xeyriyyəçisi : H. Z. Tağıyev haq-da // Azərbaycan. - 2006. - 27 yanvar. - S.6.

Rəhimzadə M. Böyük Azərbaycanlı : xeyriyyəçi maarifpərvər Hacı Zeynalabdin Tağıyev haqqında // Respublika gəncləri. - 2012. - 8-15 sentyabr. - № 70. - S. 7.

Rəhimzadə M. Əsrdən uzun yol : Hacı Zeynalabdin Tağıyevin tikdirdiyi Qızlar Seminariyasının keçdiyi yol haqqında // Azərbaycan. - 2009. - 20 may. - S. 6.

Rəhimzadə M. Sözün dəyərinə dayaq duranlar // Azərbaycan. - 2009. - 22 iyul. - S. 6. - Hacı Zeynalabdin Tağıyev və Azərbaycan mətbuatı.

Rəhimzadə M. Zəmanəsinin nadir şəxsiyyəti, böyük mesenat : 25 yanvar - bu gün Hacı Zeynalabdin Tağıyevin 189 yaşı tamam olur // Respublika gəncləri. - 2012. - 24-31 yanvar. - № 61. - S. 6.

Rəsulova İ. Məşhur şuşalılar - Əhməd bəy Ağaoğlu : jurnalisti mollaların qəzəbindən Hacı Zeynalabdin Tağıyev xilas edib // Yeni Azərbaycan. - 2022. - 26 yanvar. - № 14. - S. 8.

Rəşid M. Yaxşılıqları ilə ucalan kişi : Hacı Zeynalabdin Tağıyevin heykəli önündə düşüncələr // 525-ci qəzet. - 2022. - 20 yanvar. - № 11. - S. 16.

Rüstəmova-Tohidi S. Hacı Zeynalabdin Tağıyev Bakıda mart hadisələrinə dair teleqram göndəribmi? // Azərbaycan : qəzet. - 2015. - 31 mart. - № 65. - S. 7.

Rzalı R. Hacı Zeynalabdin Tağıyev: "Anası savadsız olan xalq kordur" // Kaspi. - 2014. - 25 noyabr. - № 196. - S. 15.

Sabiroğlu F. Şollar su kəməri // Füyuzat. - 2011. - № 5. - S. 31-35.

Süleymanov M. Nuru Paşanı, Buxara Əmirini valeh edən Azərbaycan xanımı : Hacı Zeynalabdin Tağıyevin qızı Sürəyya

xanımın xatirələrini mərhum yazıçımız Manaf Süleymanov qələmə alıb // Psixoloq. - 2012. - 30 aprel. - № 4. - S. 15.

Şahsevənli Z. Dövrünün müdrik ağsaqqalı : Mesenant Hacı Zeynalabdin Tağıyevin anım günü // Respublika. - 2010. - 31 avqust. - № 188. - S. 6.

Şəmsizadə N. Hacı Zeynalabdin Bakıya qayıdır // Ədəbiyyat qəzeti. - 2019. - 21 sentyabr. - № 32. - S. 18-19.

Tağıyeva Ş. Teatr binalarının Bakı memarlığında yeri // Mədəniyyət.az. - 2019. - № 324. - S. 85-87.

Tağıyevin heykəli Xanlar Əhmədovun layihəsi əsasında hazırlanacaq // Mədəniyyət. - 2019. - 11 sentyabr. - № 64. - S. 1, 5.

Tağıyevin qızlar məktəbi : Milyonçu Hacı Zeynəlabdin Tağıyevin qızlar məktəbi haqqında // Mədəniyyət. - 2009. - 6 noyabr. - № 81. - S. 16.

Vahid T. Neftxuda : xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin ölümündən 87 il keçir // Mədəniyyət. - 2011. - 2 sentyabr. - № 64. - S. 15.

Vahid T. Tariximizin əfsanəsi - Hacı Zeynalabdin Tağıyev // Mədəniyyət. - 2012. - 31 avqust. - № 62. - S. 15.

Zeynalabdin Tağıyev Azərbaycanın inkişafına böyük töhfələr vermişdir : prezident İlham Əliyev xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Bakıda ucaldılan abidəsinin açılışında iştirak edib / AZƏRTAC // Xalq qəzeti. - 2022. - 19 yanvar. - № 12. - S. 1, 2.

**Böyük xeyriyyəçi, öz dövrünün maarifçisi**
**Hacı Zeynalabdin Tağıyev**

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Nərgiz Məcidova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.
**İnternet ünvanı: www.clb.az**